

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET    № 126 (7381) / Çərşənbə axşamı, 16 iyul 2019-cu il


# Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır

PREZİDENT İLHAM ƏLİYEV:

*"...Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həll olunmalıdır. Uzun illərdir ərazilərimiz erməni işğalı altındadır. Bir milyondan çox qaçqın və məcburi köçkün bu təcavüz və işğaldan əziyyət çəkir. Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Səylərimiz münaqişənin ən tez zamanda həllinə yönəlib. Münaqişənin indiyədək həll olunmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir".*



Birinci vitse-prezident Mehriban Əliyeva:

## Ümummilli lider Heydər Əliyev bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət edib

⇧ Bax: səh. 3



## SOCAR-da ENOC şirkətinin nümayəndələri ilə görüş



⇨ Bax: səh. 3

⇧ Bax: səh. 3



*Baş Prokurorluq:*

**Şəki Xan Sarayının həyətindəki ağacın budaqlarının qırılmasına əlverişsiz hava şəraiti səbəb olub**

⇧ Bax: səh. 4



**Oğuzda layihə çərçivəsində müxtəlif seminarlar və təlimlər keçirilib**

⇧ Bax: səh. 6



**SOCAR-ın Karbamid zavodunda istehsal olunan gübrənin "Aqrolizinq" ASC-yə ilk satışı həyata keçirilib**


8 | Xarici İşlər Nazirliyi ADA Universiteti ilə birlikdə "Azərbaycan diplomatiyası-100 il" adlı diplomatiya həftəsi təşkil edib

14 | İnsan psixologiyası və real həyat...

16 | Kainat fırlanırmı?

## Rasim Əliyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib



Azərbaycan Prezidenti İlham Əliyev Rasim Əliyevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycanda memarlıq sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rasim Həsən oğlu Əliyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilir.

## Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Kannda Azərbaycan mədəniyyəti günləri başlayıb

Heydər Əliyev Fondunun, Fransadakı səfirliyimizin və Kann şəhər meriyasının təşkilatçılığı ilə dünya şəhəri adlandırılan Kannda Azərbaycan mədəniyyəti günləri başlayıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun Kann Festivallar və Konqreslər Sarayı yaxınlığındakı "Dəniz Vağzalı" (Gare maritime) sərgi pavilyonunda "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı xalça sərgisinin açılışı olub.

Sərginin açılışında Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Kann şəhər merinin müavini Frank Şıkli çıxış ediblər.

Anar Ələkbərov Heydər Əliyev Fondunun fəaliyyəti və həyata keçirdiyi layihələr haqqında məlumat verib. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mədəniyyətimizin dünyada tanıdılması istiqamətində verdiyi töhfələrdən danışıb. O, Fondun müxtəlif ölkələrdə, eləcə də Fransada həyata keçirdiyi irimiqyaslı humanitar, sosial layihələrdən və tarixi abidələrin restavrasiyasına verdiyi töhfələrdən söz açıb. İcraçı direktor Azərbaycan xalçaçılıq məktəbinə, onun tarixinə toxunaraq bu sərginin böyük əhəmiyyət daşıdığını qeyd edib.

"Bir neçə gün əvvəl Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirildi. Sessiyada ölkəmiz üçün çox mühüm bir qərar qəbul edildi. Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi. Bu gün Kann şəhərində təqdim edilən sərgidə də məhz Şəki xalçaçılıq məktəbi təqdim olunur. Fondun iki ildən çox müddətdəki zəhmətinin bəhrəsi olan bu sərgidə Xalq rəssamı Eldar Mikayılzadənin Azərbaycan xalçalarının Şəki qrupundan olan 13 xalça və xalça eskizləri nümayiş olunur", - deyə A.Ələkbərov vurğulayıb. O, sərginin ərsəyə gəlməsində əməyi olan hər kəsə, o cümlədən sərgilənən xalçaları ərsəyə gətirən toxuculara, Kann şəhər meriyasının əməkdaşlarına təşəkkürünü bildirib.

Kannda artıq ənənəyə çevrilmiş Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyətinə toxunan Frank Şıkli bildirib ki, mədəniyyət xəzinəmizin yaxından tanınmasını təşviq edən belə layihələr hər iki xalqın daha da yaxınlaşmasına, ikitərəfli münasibətlərin zənginləşməsinə töhfə verir. O, ölkəmizdə qədim köklərə malik ənənəmizin qorunub saxlanılmasına göstərilən qayğı və diqqətin şahidi olduğunu bildirib. Frank Şıkli Bakının ənənə və innovasiyaların vəhdəti olduğunu vurğulayıb.

Qeyd edək ki, "Dəniz vağzalı" pavilyonunda təşkil edilmiş "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgidə xalçaçı-rəssam, Xalq rəssamı Eldar Mikayılzadənin Şəki qrupuna aid 13 xalça eskizi, onların əsasında toxunan xalçalar və texniki rəsmlər nümayiş etdirilir. E.Mikayılzadə yeni Şəki qrupuna aid xalça eskizlərində Şəki Xan Sarayı və Şəkixanovlar evindəki divar rəsmlərinə, şəbəkələrə müraciət edib.

Avqustun 18-dək davam edəcək sərgi çərçivəsində bu layihəyə həsr edilmiş fransız və ingilis dillərində kataloq ziyarətçilərə təqdim olunacaq. Sərgiyə baxmağa gələn Kann şəhərinin sakinləri və turistləri layihənin hazırlanmasına dair sənədli filmlə də tanış ola biləcəklər.

# Aİ-Azərbaycan: strateji tərəfdaşlığın aktual aspektləri Tuskun səfəri fonunda

**Bir sıra ekspertlər son zamanlar Avropa İttifaqı-Azərbaycan münasibətlərində çətinliklərin olduğu və hətta Brüsselin Azərbaycanın ərazi bütövlüyünü tanımaqda tərəddüd etdiyi haqqında əsasız informasiyalar yaymağa çalışırdılar.**



Bu baxımdan Donald Tuskun regiona səfəri yerinə düşdü. Aİ rəsmisinin ifadə etdiyi fikirlər təxribat xarakterli həmin informasiyaları təkzib edib. D.Tusk Azərbaycanla əlaqələrin strateji xarakterli və çox vacib olduğunu vurğulayıb. Bu, Aİ-nin məsələyə geniş aspektdə yanaşması ilə şərtlənir. Belə ki, Brüssel Azərbaycanı Cənubi Qafqazın həm qüdrətli dövləti, həm də lideri kimi qəbul edir. Bu, Bakı ilə münasibətlərin bütövlükdə regionun geosiyasi mənzərəsində həlledici rol oynadığını göstərir. Azərbaycan Prezidenti İlham Əliyev də D.Tuskla müzakirələrdən sonra həmin kontekstdə konkret tezislər ifadə edib. Bu bağlılıqda D.Tuskun Azərbaycan səfərinin geosiyasi əhəmiyyəti üzərində geniş dayanmağa ehtiyac gördük.

### İki aspektin vəhdəti: Azərbaycan müstəqil dövlət və Cənubi Qafqazın lideri kimi

Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər haqqında antiazərbaycançı mərkəzlər və erməni lobbisi tərəfindən əsasız informasiyalar yayılır. Hətta bir sıra hallarda Aİ ilə Azərbaycan arasında ciddi ziddiyyətlərdən bəhs edilir. Lakin bu kimi informasiyalar hər dəfə bu və ya digər tərəfin rəsmi nümayəndələrinin səfərləri zamanı tamamilə puça çıxır. Bu dəfə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun regiona səfəri çoxlarının danışdığı yalanları üzə çıxardı.

Öncə onu deyək ki, D.Tusk ikinci dəfədir ki, Aİ Şurasının Prezidenti kimi Azərbaycana səfər edir. Artıq onun səlahiyyət müddəti bitib və bu səfər mahiyyətcə vida xarakterlidir. Həmin keyfiyyətdə də səfər, faktiki olaraq, Aİ-nin müstəqil dövlətlərlə əlaqələrinin xarakterini müəyyən mənada qiymətləndirmə məqsədi daşıyır. Yəni hansı dövlətlə Aİ-nin münasibətləri hansı səviyyədədir və onun perspektivi necədir.

Prezident İlham Əliyevlə D.Tuskun Bakıda apardıqları müzakirələr yuxarıda vurğulanan məqamlar baxımından çox maraqlıdır. Aydın göründü ki, Aİ üçün Azərbaycan Cənubi Qafqazda strateji əhəmiyyəti olan ölkədir. Regionun başqa heç bir dövləti ilə Aİ-nin bu səviyyədə geniş və dərin əlaqələri yoxdur. Azərbaycan müstəqil dövlət və regionun lideri kimi Brüssellə münasibətlərini elə qurub ki, hər zaman konkret proqramların həyata keçirilməsi özünü göstərir. Ümumi vədlərə əsaslanan, gəlişigözəl sözlərlə bəzənən bir münasibət yoxdur. Məsələn, D.Tuskun ermənilərə yanaşması nə qədər yaxşı olsa da (hətta bir sıra məqamlarda o, ermənipərəst siyasətçi təsiri bağışlayır), konkret məsələlər üzrə hansısa praktiki fəaliyyət gözə dəymir. Nikol Paşinyana qədər Aİ ilə Ermənistan arasında münasibətlər ümumi sözlər və dilənçi payı verməklə məhdudlaşırdı, indi isə meydana bunlardan əlavə geosiyasi ziddiyyətlər də çıxıb.

Azərbaycanla bağlı situasiya tamamilə fərqlidir: Aİ Cənubi Qafqazda real imkanlara, müstəqil siyasətə və etibarlı tərəfdaşlıq imicinə malik nüfuzlu bir dövlətlə münasibətlər qurmaqdadır. Brüssel Bakıya real tərəfdaş kimi yanaşır. Məsələnin mahiyyəti bundan ibarətdir. Prezident İlham Əliyev D.Tuskla görüşü zamanı həmin məqamın müxtəlif aspektlərini konkret fikirlərlə ifadə edib. Dövlət başçısı mətbuata verdiyi bəyanatda deyib: "Bu gün təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz zamanı biz ikitərəfli əməkdaşlığımıza dair geniş spektrli məsələləri, regional inkişaf və təhlükəsizlik məsələlərini müzakirə etdik. Biz yeni sazişlə bağlı Avropa Komissiyası ilə Azərbaycan arasında davam edən danışıqları müzakirə etdik".

Bu fikirlərdən görünür ki, Aİ-Azərbaycan münasibətlərində ikitərəfli əməkdaşlığın geniş istiqamətləri ilə yanaşı, regional inkişaf və təhlükəsizliyə aid məsələlər də ayrıca yer tutur. Belə bir spektr Brüsselin Azərbaycana həm müstəqil dövlət, həm də Cənubi Qafqazın lider ölkəsi kimi yanaşdığını əks etdirir. Bu iki aspektin vəhdəti Aİ-Azərbaycan münasibətlərinin təkamül dinamikasını göstərir.

### Beynəlxalq hüquq və ərazi bütövlüyü: Brüssel erməniləri məyus etdi

Azərbaycanın regional inkişaf və təhlükəsizliklə bağlı Aİ ilə yaxın tərəfdaşlığı konkret proqramların reallaşmasına əsaslanır. Onlar həm Brüsselin, həm də Bakının təşəbbüsü ilə həyata keçirilir. Bu səbəbdəndir ki, Aİ Azərbaycanı enerji təhlükəsizliyinin təminində vacib ölkələrdən biri kimi qəbul edir. Bu prizmadan Prezident İlham Əliyevin vurğuladığı yeni sazişlə bağlı Avropa Komissiyası ilə Azərbaycan arasında aparılan danışıqlar xüsusi önəm kəsb edir. Dövlət başçısı həmin kontekstdə ifadə edib: "Danışıqların perspektivləri ilə bağlı fikirlərimizi ifadə etdik. Danışıqlar uğurla davam edir. Bir çox məsələlər artıq öz həllini tapıb. Hazırda biz yaxşı tərəfdaşlıq ruhunda digər məsələlər üzərində iş aparırıq". Deməli, Aİ-Azərbaycan münasibətləri kifayət qədər möhkəm təməl üzərində qurulub. Söhbət nəinki bu münasibətlərin pisləşməsindən gedə bilməz, hətta Brüssel onun daha dolğun, uzunmüddətli və mütərəqqi olması üçün təşəbbüs göstərir. Bu isə Bakının təklif etdiyi strateji əməkdaşlıq sənədi üzərində aparılan işdə konkret ifadəsini tapır.

Bu baxımdan 2018-ci ilin iyulun 11-də Aİ ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" adlı sənədin qəbul olunması ayrıca diqqət tələb edir. İlham Əliyev D.Tuskla görüşündən sonra onu ayrıca vurğulayıb. Ölkə rəhbəri deyib: "Bu, çox mühüm sənəddir. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur". Mövqe kifayət qədər aydındır: Aİ rəsmi olaraq Azərbaycanla münasibətlərin prioritet istiqamətləri sırasında ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığını qeyd-şərtsiz prioritet məsələ kimi qəbul edir.

Bu fikirdə, əslində, son vaxtlar bəzi qüvvələrin Aİ-Azərbaycan münasibətlərinə kölgə salmaq məqsədi ilə ortaya atdıqları iftiralara cavab vardır. Belə ki, onlar Aİ-nin Azərbaycanın ərazi bütövlüyü məsələsini qəbul etmək istəmədiyi kimi cəfəng fikirlər yaymağa çalışdılar. Məsələ təbii ki, dərhal aydınlaşdı. İndi isə Prezident İlham Əliyevin dəqiq ifadə ilə real vəziyyəti əks etdirməsi məsələyə nöqtə qoymuş olur. Çünki rəsmi olaraq prioritet statusu almış bir sənəddə ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığı konkret göstərilirsə, Aİ üçün bu, bir qanundur. Ondan kənara çıxmaq mümkün deyil. Və ya bu, Aİ-nin iflası demək olardı.

Əslində, D.Tusk da eyni fikirləri ifadə edib. O, İrəvanda da açıq bəyan etmişdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları və Helsinki Yekun Aktının şərtləri daxilində həll edilməlidir. Yəni D.Tusk məsələyə Aİ-nin siyasi, ideoloji və hüquqi dəyərləri müstəvisində baxır. Bakıda o, bu mövqeyini daha aydın fikirlərlə ifadə edib. Aİ Şurasının Prezidenti deyib: "Azərbaycan çox nadirdir. Ölkəniz özündə ənənə və müasirliyi birləşdirir. Bu günün mürəkkəb coğrafi landşaftındakı strateji mövqeyinizə görə Siz həm Şərqə, həm də Qərbə doğru baxırsınız. Əvvəllər də qeyd etdiyim kimi, cənab Prezident, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir".

Burada qaranlıq heç bir məqam yoxdur: D.Tusk Aİ ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq prioritetləri"nin müddəalarına uyğun fikir bildirib. O, 2018-ci ildə müəyyən edilmiş prioritetlər kontekstində Azərbaycanla əlaqələrin perspektivini belə ifadə edib: "Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək".

D.Tusk bundan başqa tərəflər arasında mühüm əhəmiyyət kəsb edən enerji və nəqliyyat layihələrinin xüsusi yer tutduğunu da vurğulayıb. Bütün bunların yekunu olaraq, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Prezident İlham Əliyev və D.Tuskun məzmunca bir-birindən fərqlənməyən fikirləri olduqca maraqlıdır. Bakı və Brüssel münaqişənin Azərbaycanın ərazi bütövlüyü şərti ilə ancaq beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsinin vacibliyini vurğulayıblar.

Beləliklə, Aİ Şurasının Prezidentinin Azərbaycana səfəri iki aspektdə əhəmiyyətli oldu. Birincisi, Brüsselin Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları daxilində həllində maraqlı olduğu bir daha aydınlaşdı. İkincisi, Brüssel Azərbaycanla əlaqələrinin strateji xarakterini tam dərk edir və onun inkişafı etməsi üçün konkret addımlar atır. Aİ ümid edir ki, münasibətlərdəki "müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalıdır, Azərbaycanın islahatlar və iqtisadi şaxələnmə prosesini müşayiət etməlidir". Bizcə, şərhə ehtiyac yoxdur!

**Newtimes.az**

## DSX: GÜRCÜSTAN VƏTƏNDAŞLARI TƏRƏFİNDƏN AZƏRBAYCAN SƏRHƏD NARYADINA QARŞI İNSİDENT TÖRƏDİLİB

İyulun 14-də saat 14:50 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin "Keşikçi qala" sərhəd zastavasının xidməti ərazisində Gürcüstan vətəndaşları tərəfindən Azərbaycan sərhəd naryadına qarşı insident törədilib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, hadisə ilə əlaqədar təxirəsalınmaz tədbirlər görülüb. İnsident qısa müddətdə aradan qaldırılıb və DSX-nin şəxsi heyəti tərəfindən ərazidə təhlükəsizlik tədbirləri təmin edilib.

Azərbaycan və Gürcüstan sərhəd nümayəndələri arasında görüş keçirilib, baş vermiş hadisə birgə araşdırılıb. Gələcəkdə belə hallara yol verilməməsi üçün görülməli olan tədbirlər müzakirə edilib.

## ATƏŞKƏS REJİMİ POZULUB



Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

### Birinci vitse-prezident Mehriban Əliyeva:

# Ümummilli lider Heydər Əliyev bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət edib

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Müasir Azərbaycan tarixinin bütün səhifələrində, istər iqtisadiyyat, istər xarici siyasət, istər elm və mədəniyyətdə onun silinməz izlərini görürük.**



AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda yer alıb.

Paylaşımda qeyd edilir ki, Heydər Əliyev nailiyyətləri və qələbələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək nəsillər üçün mərdlik, müdriklik və vətənpərvərlik nümunəsi olacaqdır.

# SOCAR-da ENOC şirkətinin nümayəndələri ilə görüş







SOCAR-ın prezidenti Rövnəq Abdullayev Birləşmiş Ərəb Əmirliklərinin ENOC şirkətinin sədr müavini Şeyx Səid Məhəmməd Əl Tayerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirmişdir. SOCAR-ın prezidenti Rövnəq Abdullayev qonaqları salamlamış, şirkətin həyata keçirdiyi yerli və beynəlxalaq layihələr haqqında ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, belə görüşlər yeni əməkdaşlıq əlaqələrinin yaradılmasında xüsusi rol oynaya bilər.

ENOC şirkətinin sədr müavini Şeyx Səid Məhəmməd Əl Tayer səmimi qəbul üçün təşəkkür etmiş, SOCAR-ın fəaliyyətini daim yaxından izlədiklərini qeyd etmişdir. Görüşdə SOCAR və ENOC şirkətləri arasında treydinq üzrə əməkdaşlıq və müxtəlif layihələrə sərmayə yatırımları imkanları, eləcə də perspektivlər müzakirə olunmuşdur.

Görüşdən sonra qonaqlar SOCAR TOWER-dəki interaktiv neft muzeyi ilə tanış olmuşlar.

# *Baş Prokurorluq:* Şəki Xan Sarayının həyətindəki ağacın budaqlarının qırılmasına əlverişsiz hava şəraiti səbəb olub

**İyulun 15-də Azərbaycan Respublikasının Baş Prokurorluğu ötən gün Şəki Xan Sarayının ərazisindəki ağacın budaqlarının qırılması nəticəsində çoxlu sayda insanın xəsarət alması ilə bağlı yeni məlumat yayıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, iyulun 14-də saat 12 radələrində Şəki Xan Sarayının ərazisində ağacın budaqlarının qəflətən qırılaraq insanların üzərinə düşməsi nəticəsində 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq dərhal Şəki Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onlardan 13 nəfərə ilkin tibbi yardım göstərilərək evə buraxılıb. Digər 2 nəfərin Şəki Rayon Mərkəzi Xəstəxanasında, 4 nəfərin isə Bakıdakı Mərkəzi Klinik Xəstəxanada yüksəkixtisaslı mütəxəssislərin cəlb olunması ilə intensiv müalicələri davam etdirilir.



Baş vermiş hadisə ilə əlaqədar rayon prokurorluğunun əməkdaşları, eləcə də aidiyyəti nazirliklərin mütəxəssisləri dərhal həmin ünvana gedərək, ilk növbədə, xəsarət alan şəxslər təcili-tibbi yardım maşınları ilə xəstəxanaya çatdırılıblar. Hadisə yerinə baxış keçirilib, qırılmış budaqlardan nümunələr, habelə digər əhəmiyyət kəsb edən maddi sübutlar və izlər götürülüb, mütəxəssislərin ilkin rəyləri alınıb.

Aparılmış ilkin araşdırmalarla müəyyən edilib ki, hündürlüyü 34 metr olan Xan çinarının 21 metr hündürlükdə yerləşən 0,5 metr diametrli budağı qəflətən qoparaq aşağıda - 17 metr hündürlükdə olan nisbətən kiçik diametrli budağı da qırıb, nəticədə hər iki budaq insanların üzərinə düşüb.

Mütəxəssislərin ilkin rəyinə əsasən, budaqların qırılmasına əlverişsiz hava şəraiti səbəb olub. Belə ki, iyulun 12-də başlayan və sürəti saniyədə 8-12 metr olan küləklə müşayiət olunan, xüsusilə iyulun 14-də səhər saatlarından başlayaraq 3 saat ərzində aylıq normanın 54 faizi miqdarında (32 mm) aramsız yağış yağıb.

İlkin müayinələrə əsasən müəyyən edilib ki, qırılmış əsas budaq sağlam olub, qurumağa və hansısa fiziki təsirlərə məruz qalmayıb. Həmin budaqlarda virus və ya bakterioloji proseslərin gedib-getməməsinin müəyyən edilməsi üçün budaqlardan nümunələr götürülərək bioloji tədqiqatın keçirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri cəlb olunmaqla məhkəmə-bioloji və məhkəmə-trasoloji ekspertizaları təyin edilib. Ekspertizaların keçirilməsi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə həvalə olunub.

Hazırda araşdırmalar davam etdirilir.

# Oğuzda layihə çərçivəsində müxtəlif seminarlar və təlimlər keçirilib





**Xəbər verildiyi kimi, iyulun 12-də Oğuz rayonunda Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkil etdiyi "Gənc liderlər üçün yay məktəbləri"nin ikinci turu başlayıb. Artıq bir neçə gündür davam edən ikinci turda da layihə çərçivəsində müxtəlif seminarlar, təlimlər, diskussiyalar, interaktiv, intellektual və əyləncəli oyunlar təşkil edilir.**

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası gənclərin siyasi fəallığının artırılmasına, asudə vaxtlarının səmərəli təşkilinə, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. YAP-ın gənclərlə bağlı ən uğurlu layihələrindən olan və 2007-ci ildən başlayan "Yay məktəbləri" isə bu mənada xüsusilə seçilir. Bu layihənin əsas məqsədi gənclərin bir-birini daha yaxından tanımasını, onların arasında səmimi münasibətlərin yaradılmasını, ölkədə ictimai həyatın istənilən sahəsində dinamik inkişaf haqqında onlara dolğun məlumatların çatdırılmasını, tanınmış siyasətçilərlə gənclərin görüşlərinin təşkilini, gələcəkdə müxtəlif sahələrdə çalışacaq bu gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasını təmin etməkdir.





Vurğulamaq lazımdır ki, nəzərdə tutulmuş proqrama uyğun olaraq layihə iştirakçıları ikinci turda da maraqlı mövzular ətrafında müzakirələr aparırlar. "Yay məktəbi"nin ikinci Oğuz turunun ikinci günündə iştirakçılar "Sosial şəbəkələrdən istifadə" mövzusunda diskussiya apardılar. Müzakirələrdə Milli Məclisin deputatları Sona Əliyeva və Dilarə Cəbrayılova, həmçinin YAP Mərkəzi Aparatının məsul əməkdaşı Həsən Daşdəmirov və YAP Gənclər Birliyi Ofisinin koordinatoru Şəfəq Əhmədova da iştirak etdilər.

**Gənclərlə görüşdə çıxış edən Milli Məclisin deputatı Dilarə Cəbrayılova bildirib ki,** bu gün ölkəmizdə internet istifadəçilərinin sayı durmadan artır. Gənclərin daha çox internet və əsasən də sosial şəbəkə istifadəçisi olduğunu diqqətə çatdıran natiq vurğulayıb ki, sosial şəbəkələrdən şər-böhtan, ölkəmizə qarşı qarayaxma kampaniyası təşkil etmək üçün istifadə edənlər öz layiqli cavablarını alırlar. Milli Məclisin deputatı bildirib ki, Azərbaycan gəncliyi ölkəmizdə aparılan siyasi kursu dəstəkləyir və gəncliyin inkişafı istiqamətində görülən tədbirləri, qəbul olunan Dövlət proqramlarını yüksək dəyərləndirir.

**Milli Məclisin deputatı Sona Əliyeva isə öncə YAP-ın gənclərə göstərdiyi diqqət və qayğıdan söhbət açıb.** Keçirilən "Yay məktəbi" layihəsinin də bu diqqət və qayğının bir nümunəsi olduğunu söyləyən S.Əliyeva əlavə edib ki, sosial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib. Onun sözlərinə görə, Azərbaycanın inkişafına qısqanclıqla yanaşan, ölkəmizin Cənubi Qafqazda lider mövqeyə yüksəlməsindən narahatlıq keçirən anti-Azərbaycan dairələr, o cümlədən həmin ermənipərəst mərkəzlərin əlaltısı qismində çıxış edən bir sıra xaricdə məskunlaşmış şəxslər məhz sosial şəbəkələr vasitəsilə ictimai rəydə çaşqınlıq yaratmağa çalışır, ölkəmizə qarşı böhtanlar yağdırırlar. YAP Gənclər Birliyinin üzvlərinin sosial şəbəkələrdəki aktivliyini xüsusi vurğulayan Milli Məclisin deputatı qeyd edib ki, Azərbaycan gəncliyi ölkəmizə qarşı sosial şəbəkələrdə aparılan qarayaxma kampaniyalarına öz münasibətlərini bildirir, milli maraqlarımıza uyğun mövqe nümayiş etdirir.

Daha sonra YAP Gənclər Birliyinin təşkil etdiyi layihənin iştirakçısı olan fəal gənclər məsələ ilə bağlı fikirlərini bölüşüblər. Qeyd olunub ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti nəticəsində Azərbaycan yerləşdiyi bölgənin aparıcı iqtisadi-siyasi aktoruna çevrilib. Ölkəmizin təşəbbüsü ilə reallaşdırılan qlobal miqyaslı layihələrdən danışan gənclər bildiriblər ki, bütün görülən işlərin nəticəsi olaraq Azərbaycan dünyada yaxın tərəfdaş qismində qəbul edilir. O da bildirilib ki, YAP Gənclər Birliyinin üzvləri hər zaman sosial şəbəkələrdə ölkəmizin əleyhinə yalan təbliğat aparan, ölkə daxilində siyasi sabitliyə zərər yetirməyə çalışan radikal müxalifət qüvvələri və digərləri ilə açıq polemikaya girir, ölkə reallıqlarını hər kəsin diqqətinə çatdırırlar.

Həmin gün ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50-ci ildönümünə həsr olunmuş seminar-diskussiya təşkil olunub. Çıxış edən Milli Məclisin deputatı Sona Əliyeva ulu öndər Heydər Əliyevin ölkəmiz və xalqımız qarşısındakı misilsiz xidmətləri barədə danışıb. Hələ sovet dövründə keçmiş İttifaqda yalnız aqrar respublika kimi xarakterizə olunan Azərbaycanın tez bir zamanda sənaye respublikasına çevrilməsinin inkişafının Ulu Öndərimizin adı ilə bağlı olduğunu söyləyən S.Əliyeva 1969-cu ildə Ümummilli Liderin Sovet Azərbaycanına rəhbər seçilməsi ilə bu prosesin başlandığını deyib. Bildirilib ki, həmin vaxtlar respublikamızda milli kadrların yetişdirilməsi, ana dilimizə olan münasibətin dəyişməsi, milli mədəniyyətimizin inkişafı, Azərbaycanın dünya miqyasında tanınması istiqamətində aparılan bütün fəaliyyət ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

S.Əliyeva onu da qeyd edib ki, 1993-cü ilin iyununda xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndərimiz növbəti dəfə Azərbaycanın xilası missiyasını Öz üzərinə götürdü: "Ulu öndər Heydər Əliyev Ali Sovetin Sədri kimi fəaliyyətə başladığı ilk aylarda atdığı müdrik addımlar sayəsində qısa müddət ərzində vətəndaş müharibəsi və ölkəmizin parçalanmaq təhlükəsinin qarşısını aldı, hakimiyyəti qeyri-qanuni ələ keçirməyə cəhd göstərən cinayətkar qüvvələr xalqın dəstəyi ilə zərərsizləşdirildi, ölkədə siyasi sabitlik yaradıldı. Bu isə hüquqi dövlət quruculuğu sahəsində atılması vacib olan ilk addımlardan idi. Çünki ölkənin gələcək inkişafı məhz sabitliyə əsaslanırdı. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hüquqi dövlət quruculuğu yolunu seçdiyini bəyan etsə də, bu məramın həyata keçirilməsi məhz ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk milli Konstitusiyanın qəbul olunması ilə reallaşdı".

Milli Məclisin deputatı əlavə edib ki, bu gün əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidentinin rəhbərliyi ilə davamlı şəkildə aparılan islahatlar Azərbaycanın sosial-iqtisadi inkişafının daha da yüksəlməsini təmin edib.

Tədbirdə çıxış edən "Yay məktəbi"nin iştirakçıları Prezident İlham Əliyevin ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların intellektual inkişafına xüsusi qayğı ilə yanaşdığını, gənclərimizin müasir Azərbaycanın inkişafı prosesində fəal iştirak etdiyini bildiriblər.

Yeri gəlmişkən, "Yay məktəbi"nin ikinci Oğuz turunun gedişində gənclər həm də asudə vaxtlarını səmərəli keçirirlər. Belə ki, təşkilatçılar tərəfindən iştirakçılar üçün müxtəlif intellektual oyunlar, idman yarışları təşkil olunur, istedad gecələri keçirilir. Qeyd edək ki, Oğuz rayonunda təşkil olunan "Gənc liderlər üçün yay məktəbləri"nin ikinci turu iyulun 17-də başa çatacaq.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***





# Səudiyyə Ərəbistanı ilə ədliyyə sahəsində Əməkdaşlıq Proqramı imzalanıb




**Səudiyyə Ərəbistanı Krallığı ilə ikitərəfli münasibətlərin inkişafında hüquqi əlaqələrə böyük əhəmiyyət verilir, qarşılıqlı səfərlər həyata keçirilir. Cari ilin əvvəlində Azərbaycanın Ədliyyə naziri Fikrət Məmmədovun Səudiyyə Ərəbistanına səfəri zamanı iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Həmin sənəd Azərbaycan Prezidentinin 2019-cu il 12 mart tarixli Fərmanı ilə təsdiq olunub. Bütün bunlar hüquqi sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə təkan verib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın məhkəmə-hüquq sistemi və aparılan islahatlarla tanış olmaq məqsədilə Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Dr. Valid bin Mohammad Al-Samaani geniş tərkibli nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlib.

İyulun 15-də iki ölkənin Ədliyyə nazirlərinin görüşü keçirilib.

Nazir F.Məmmədov Səudiyyə Ərəbistanına məhsuldar səfərini və nümayəndə heyətimizə böyük şərəf verilərək İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı tərəfindən qəbulunu böyük məmnunluqla xatırladıb, nazirliklər arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin inkişafına xidmət etdiyini vurğulayıb.

Dövlətimizin başçısının rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan genişmiqyaslı islahatlar və yeniliklər, xüsusilə bu sahədə yeni mərhələ olan Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı barədə məlumat verilib.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Səudiyyə Ərəbistanının naziri respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduğunu vurğulayıb, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını ifadə edib. Bildirib ki, iki ölkənin Ədliyyə nazirlikləri arasında Anlaşma Memorandumunun bağlanması, hazırkı səfər və Əməkdaşlıq Proqramının imzalanması İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralının Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə verdiyi əhəmiyyətin təzahürüdür.

Sonra nazirliklərarası Anlaşma Memorandumunun həyata keçirilməsi üzrə praktiki sənəd olan Əməkdaşlıq Proqramı imzalanıb. Sənəddə birgə tədbirlərin, o cümlədən ədliyyə və məhkəmə sistemləri ilə tanışlıq məqsədilə qarşılıqlı səfərlərin təşkili, qabaqcıl beynəlxalq təcrübələr üzrə məsləhətləşmələrin aparılması, ədliyyə sahəsindəki yeniliklər üzrə məlumat mübadiləsi, ədliyyə işçiləri və hakimlərin tədrisi üzrə videokonfransların və təlim səfərlərinin təşkili nəzərdə tutulur. Sənədin ekspertlər səviyyəsində də münasibətlərin genişləndirilməsinə xidmət edəcəyi bildirilib.

Səudiyyə Ərəbistanının Ədliyyə nazirinin ölkəmizin ədliyyə sahəsindəki innovasiyalara böyük marağı nəzərə alınaraq görüşdə səyyar notariat xidmətlərini istənilən yerdə aparmağa, sənədləri çapdan çıxarmağa və təqdim etməyə imkan verən ərəb dilli proqram təminatı ilə təchiz olunmuş xüsusi elektron notariat çantası nümayiş etdirilərək qonaqlara təqdim olunub. Azərbaycanın innovativ məhsulu təqdirəlayiq hesab olunaraq ondan faydalanılacağı bildirilib.

Söhbət zamanı Azərbaycanın Şəki Xan Sarayı və Şəkinin tarixi mərkəzinin yenicə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi haqqında məlumat verilib. Həmçinin həmin siyahıya daxil olan Birinci Səudi Dövlətinin paytaxtı, memarlıq sənətinin gözəl nümunəsi sayılan qədim Diriiyyə şəhəri haqqında azərbaycanlı müəllifin "Diriiyyə - açıq səma altında muzey" kitabının Əlahəzrət Səudiyyə Ərəbistanı Kralının nümayəndə heyətimiz səfərdə olarkən xeyir-duası və ölkəmizin Ədliyyə Nazirliyinin dəstəyi ilə ərəb dilinə tərcümə olunaraq nəfis şəkildə nəşr edilmiş nüsxəsi Səudiyyə Ərəbistanı tərəfinə təqdim edilib.

Nazir Dr. Valid bin Mohammad Al-Samaani kitabın ərsəyə gəlməsinə görə təşəkkürünü bildirərək, belə bir dəyərli nəşrin xalqlarımız arasında qardaşlıq münasibətlərinin əyani təzahürü olduğunu vurğulayıb.

Tədbirdə Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr və ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev iştirak ediblər.

Nümayəndə heyəti nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Həmin gün qonaqların nazirliyin müxtəlif reyestrləri, elektron sistemləri və digər informasiya resursları ilə tanışlığı olub. Azərbaycan ixtirası olan, vətəndaşlara səyyar və məsafədən xidmətlər göstərən elektron ədliyyə köşkü və "Mobil notariat" proqram təminatı barədə təqdimat keçirilib.

Qonaqlar ədliyyə sahəsində innovasiyaları maraqla qarşılayıb, ölkəmizin nailiyyətlərini təqdir ediblər.

Nümayəndə heyəti, həmçinin Yasamal Rayon Məhkəməsinə baş çəkərək müasir infrastrukturla və "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə tanış olublar.

Səfər çərçivəsində qonaqların Konstitusiya Məhkəməsində və Ali Məhkəmədə, Baş Prokurorluqda rəsmi görüşləri, habelə paytaxtın tarixi və mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən sayılan Heydər Əliyev Mərkəzi ilə tanışlığı nəzərdə tutulur.

# Lerikdə "Gənc liderlər üçün yay məktəbləri"nin ikinci turu başlayıb

**İyulun 14-də Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Gənc liderlər üçün yay məktəbləri"nin II Lerik turunun iştirakçılarının yolasalınma mərasimi keçirilib.**









Tədbirdə çıxış edən YAP İcra Katibliyinin işlər idarəsinin müdiri Mahir Abbasəliyev ikinci turda layihə çərçivəsində təşkil ediləcək müxtəlif seminarlar, təlimlər, diskussiyalar, interaktiv, intellektual və əyləncəli oyunlar haqqında məlumat verib.

Qeyd edib ki, "Yay məktəbi"ndə gənclərin siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetiriləcək. Nəzərdə tutulmuş proqrama uyğun olaraq layihə çərçivəsində partiyanın fəaliyyəti, gördüyü işlər barədə geniş məlumatlar veriləcək, eləcə də gəncləri maraqlandıran müxtəlif tədbirlər təşkil olunacaq.

Sonra gənclər Lerik rayonuna yola düşüblər.

Lerikdə Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Gənc liderlər üçün yay məktəbləri"nin ikinci turu başlayıb.

"Yay məktəbi"nin açılışı mərasimində Milli Məclisin deputatları Sevinc Hüseynova, İqbal Məmmədov, partiyanın məsul əməkdaşları Araz Xudadanov, Elmar Məmmədov layihənin əhəmiyyətindən, gənclərin bilik və bacarıqlarının artırılmasında rolundan geniş bəhs ediblər.

Bildiriblər ki, YAP rəhbərliyi gənclərin siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, beynəlxalq əlaqələrinin genişləndirilməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Bu layihələr sırasında 2007-ci ildən başlayaraq hər il keçirilən yay və qış liderlik məktəblərini xüsusi qeyd etmək lazımdır. Bu layihələrin əsas məqsədi gənclərin bir-birini daha yaxından tanımasını, onların arasında səmimi münasibətlərin yaradılmasını, ölkədə ictimai həyatın istənilən sahəsində dinamik inkişaf haqqında onlara dolğun məlumatların çatdırılmasını, tanınmış siyasətçilərlə onların görüşlərinin təşkil edilməsini, gələcəkdə müxtəlif sahələrdə çalışacaq bu gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasını təmin etməkdir.

Natiqlər gənclərə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə, YAP-ın İcra Katibliyinə minnətdarlıqlarını bildiriblər.

Açılış mərasimində layihə çərçivəsində nəzərdə tutulan seminarlar, təlimlər barədə iştirakçı gənclərə ətraflı məlumat veriblər.

Sonda gənclərin iştirakı ilə təşkilat komitəsinin və komandaların üzvləri elan olunub.

Günün sonunda təlim və interaktiv oyunlar keçirilib.

## "Sosial şəbəkələrdən istifadə qaydaları"

Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Gənc liderlər üçün yay məktəbləri"nin ikinci turu çərçivəsində təlim və tədbirlər iyulun 15-də də davam etdirilib.

Günün birinci yarısında "İcebreaker" oyunu təşkil olunub.

Sonra "Sosial şəbəkələrdən istifadə qaydaları" mövzusunda təlim keçirilib.

Çıxış edən YAP Gənclər Birliyi Ofisinin koordinatoru Elmar Məmmədov təlimin mövzusu və faydaları barədə məlumat verib.

Sonra "Yay məktəbi"nin ikinci günündə YAP Nizami rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Ramil Vəlibəyovun moderatorluğu ilə "Sosial şəbəkələrdən istifadə qaydaları" mövzusunda təlim keçirilib. Ramil Vəlibəyov sosial şəbəkələrdən istifadə qaydaları və ictimai rəyə təsiri imkanları barədə ətraflı məlumat verib.

Sonda gənclərin sualları cavablandırılıb.

## "Heydər Əliyev gənclərin düşüncəsində - 50 il"

Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Gənc liderlər üçün yay məktəbləri"nin ikinci turu çərçivəsində Lerikdə "Heydər Əliyev gənclərin düşüncəsində - 50 il" mövzusunda müzakirələr aparılıb.

Çıxış edən Milli Məclisin deputatları Sevinc Hüseynova, İqbal Məmmədov, YAP Gənclər Birliyinin sədr müavini Ramin Məmmədov, partiyanın Gənclər Birliyi Ofisinin koordinatoru Elmar Məmmədov və başqaları dahi şəxsiyyət Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən, gələcəyə hesablanmış inkişaf strategiyasından geniş bəhs ediblər. Bildiriblər ki, ulu öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və sabahının əsasıdır. Bu ideyalar müstəqil Azərbaycanımıza biri-birindən əhəmiyyətli uğurlar qazandırır.

Müzakirələr zamanı vurğulanıb ki, gənclərə diqqət və qayğı ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə fəaliyyətinin əsas istiqaməti olub. Hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünən ümummilli lider Heydər Əliyev gənclərin keçmiş İttifaqın nüfuzlu ali məktəblərində təhsil almasının təşəbbüsçüsü olmuşdur. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı dövrdə də gənclərə diqqət və qayğı dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi.

Çıxış edən gənclər də ulu öndər Heydər Əliyevin ideyalarından və müasir dövlət quruculuğundan danışaraq, onlara olan diqqət və qayğını yüksək qiymətləndiriblər.

Diskussiya şəklində davam edən seminarda gəncləri maraqlandıran suallar cavablandırılıb.

Təlim və müzakirələrdən sonra gənclər arasında müxtəlif idman yarışları (futbol, üzgüçülük, stolüstü tennis) keçirilib.

Günə interaktiv, intellektual, praktik oyunlarla yekun vurulub.

"Yay məktəbi"nin hər bir günü gənclərin həyatında müxtəlifliyi ilə diqqət çəkir. Gənclər həmin gün çərçivəsində təşkil olunan seminarlar, diskussiyalar zamanı öz biliklərini artırır, bir-birləri ilə ünsiyyət əsasında həm dostluq əlaqələrinin qurulmasına, həm də biliklərinin mübadiləsinə nail olurlar. Gənclər üçün həm təcrübə, həm də biliklərin mübadiləsinə yardımçı olan "Yay məktəbi" davam edir.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# SOCAR-ın Karbamid zavodunda istehsal olunan gübrənin "Aqrolizinq" ASC-yə ilk satışı həyata keçirilib

**SOCAR-ın Karbamid zavodunda istehsal olunan karbamid məhsulunun Azərbaycanın əsas gübrə tədarükçülərindən olan "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə ilk satışı həyata keçirilmişdir. Bununla əlaqədar təşkil edilmiş mərasimdə Karbamid zavodunun direktoru Xəyal Cəfərov və "Aqrolizinq" ASC-nin sədri Elmin Rəhmanov iştirak etmişlər.**





Bildirilmişdir ki, əsas vəzifələrindən biri yerli sahibkar və fermerləri güzəştli şərtlər əsasında gübrə məhsulu ilə təmin etmək olan "Aqrolizinq" ASC indiyədək karbamid tədarükünü idxal yolu ilə həyata keçirmişdir. SOCAR-ın Karbamid zavodunun fəaliyyətə başlaması ilə bu sahədə idxaldan asılılığın aradan qaldırıldığından, artıq karbamid gübrəsinin "Aqrolizinq" ASC tərəfindən həmin zavoddan satın alınması və güzəştli şərtlərlə yerli sahibkar və fermerlərə tədarük edilməsi planlaşdırılır.

May ayından daxili və xarici bazarlarda gübrə satışına başlayan Karbamid zavodunda hazırkı dövrədək təxminən 60 min ton karbamid istehsal edilmiş və bu məhsulun təxminən 45 min tonu tender yolu ilə əsasən Türkiyə və Ukrayna bazarlarına, habelə yerli bazarda "Azfert" MMC-yə satılmışdır. Hazırda zavodda istehsal edilən karbamidin tədarükü avtomobil və dəniz yolları vasitəsilə həyata keçirilir, yaxın gələcəkdə, zəruri infrastrukturun yaradılmasından sonra məhsulun əsasən dəmir yolu vasitəsilə tədarük edilməsi nəzərdə tutulur.

Karbamid zavodunun direktoru Xəyal Cəfərov demişdir: "Bu, bizim "Aqrolizinq" ASC ilə ilk əməkdaşlığımızdır. Bu əməkdaşlıq nəticəsində ölkə fermerlərinin ən keyfiyyətli gübrə məhsullarından olan karbamiddən münasib qiymətlərlə istifadəsinə imkan yaranır. Bu isə öz növbəsində məhsuldarlığın yüksəlməsinə, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsinə, kənd təsərrüfatı məhsullarının maya dəyərinin aşağı düşməsinə gətirib çıxaracaq."

"Aqrolizinq" ASC-nin sədri Elmin Rəhmanov SOCAR-ın Karbamid zavodu ilə əməkdaşlığı yüksək dəyərləndirərək demişdir: "İnanıram ki, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən həyata keçirilmiş karbamid zavodu layihəsinin uğurla başa çatdırılması və zavodun istehsala başlaması ölkənin kənd təsərrüfatının inkişafında xüsusi rol oynayacaq, yerli istehsal olan karbamid gübrəsi kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinə töhfə verəcəkdir."

Xatırladaq ki, Sumqayıt şəhərində yerləşən və illik 650-660 min ton karbamid istehsalı gücünə malik olan SOCAR-ın Karbamid zavodu istismara 16 yanvar 2019-cu il tarixində verilmişdir. Zavodun istehsal həcminin təqribən 70 faizi ixrac üçün nəzərdə tutulub ki, bu da ölkəyə illik 160 milyon dollara qədər həcmdə əlavə gəlirin daxil olmasına imkan verəcək.

**Rəşad Bağırov,**
***"İki sahil"***

# YAP ölkə gəncləri arasındakı ünsiyyəti və əlaqələri möhkəmləndirən böyük siyasi təşkilatdır

*"Yay məktəbləri" layihəsi çərçivəsində Azərbaycan gəncliyi özünü bir daha sübut etmək, malik olduğu keyfiyyətləri üzə çıxarmaq şansı əldə edir*

**YAP-ın hər il təşkil olunan "Yay məktəbləri" layihəsi bu mövsüm də baş tutub. Belə ki, 2007-ci ildən həyata keçirilən bu tədbirlər çərçivəsində bu il də gənclər üçün Lerik rayonundakı "Relax" istirahət mərkəzində və Oğuzdakı "Afra" hoteldə hər qrupda 70 nəfər olmaqla 5 günlük "Yay məktəbləri" təşkil olunub.**

Layihənin məqsədi gənclərin həm asudə vaxtlarını yaxşı keçirmələri, bir-biri ilə təmas, münasibət qurmaları, həm də onlar üçün intellektual və əyləncəli yarışların, idman oyunlarının təşkili olub. "Yay məktəbləri"ndə YAP-ı təmsil edən deputatlar, eləcə də hökumət nümayəndələri gənclərin qonağı olublar. Onlar müxtəlif mövzular ətrafında fikirlərini bölüşüb, gəncləri maraqlandıran suallara cavab veriblər. Təbii ki, bütün bunlar gənclərdə böyük marağa və yaddaqalan xatirələrə çevrilib. Bunu həmin layihənin iştirakçısı olmuş gənclər də etiraf edirlər.

**Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının məsləhətçisi Güldanə Orucova bildirib ki,** bu cür layihələr partiyanın Bakı şəhərindəki təşkilatlarındakı gənclərlə bölgədəki rayon təşkilatlarının gəncləri arasında ünsiyyət formalaşdırır, əlaqələr yaradır, yeni fikir və ideyaların meydana çıxmasına səbəb olur: "YAP-ın təşkil etdiyi "Yay məktəbləri" layihələri bu baxımdan gənclər üçün böyük imkanlar yaradır".





**YAP Tərtər rayon təşkilatı Gənclər Birliyinin sədri Tunarə Məmmədzadə deyib ki,** biz gənclər nəzəri baxımından təhsil aldığımız müddətdə əldə etdiyimiz bilikləri, təcrübələri həmin düşərgələrdə keçirilən diskussiyalarda paylaşmaq imkanı əldə etmiş oluruq. Bu zaman həm biz öz potensialımızı reallaşdırırıq, özümüzü sübut edirik, malik olduğumuz natiqlik, fikir yürütmə keyfiyyətlərimizi üzə çıxarırıq, həm də bildiklərimizin mübadiləsini aparırıq.



**YAP Sumqayıt şəhər təşkilatı Gənclər Birliyinin sədri Elvin Məmmədzadə isə vurğulayıb ki,** Yeni Azərbaycan Partiyası Azərbaycan gəncliyinə özünü sübut etmək, daxili istedadını üzə çıxarmaq üçün perspektivli fəaliyyət platforması yaradır. Biz gənc nəsil çox xoşbəxtik ki, Azərbaycanın çiçəklənən dövrünün vətəndaşlarıyıq, eyni zamanda, ölkəmizin avanqard siyasi qüvvəsinin üzvləriyik.



**YAP Binəqədi rayon təşkilatının baş məsləhətçisi Kubra Əliyarlı da əqidə yoldaşının fikirlərini bölüşərək deyib ki,** Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Yay məktəbləri" layihəsi, eyni zamanda, gənclərə ümummilli lider Heydər Əliyevin zəngin irsini öyrədilməsi, milli dövlətçiliyimizin tarixi, onun möhkəmləndirilməsi, həmçinin ölkədə reallaşdırılan siyasi-iqtisadi kurs haqqında biliklərin əldə olunması istiqamətində əlverişli şans verir: "Deputatların, Azərbaycan ziyalılarının iştirakı ilə keçirilən diskussiyalarda praktik biliklər əldə edə bildik. Diskussiyalarda bir daha bugünkü zəngin və müstəqil Azərbaycanın necə ağır dönəmlərdən keçərək, inkişafın yeni mərhələsinə yüksəldiyini əyani şəkildə təsəvvür edirdik".

"Qeyd edim ki, müstəqil Azərbaycanın bu cür sürətli və stabil inkişafı heç də hər kəsdə sevinc hissi doğurmur. Elə xaricdə olduğu kimi, daxilimizdə də Vətənimizin uğurlarına sevinməyənlər var. Onlar bütün vasitələrdən istifadə edərək Azərbaycana qarşı təbliğat aparır, dövlətimizin nailiyyətlərinə kölgə salmağa çalışırlar. Bunları isə internet, sosial şəbəkələr üzərindən həyata keçirirlər" deyən partiya fəalı, **YAP Biləsuvar rayon təşkilatı Gənclər Birliyinin sədri Aqşin Bağırov əlavə edib ki,** biz gənclərin "Yay məkəbləri" layihəsi çərçivəsində əsas müzakirə mövzularımızdan biri bu oldu: "Məhz, sosial şəbəkələrlə bağlı diskussiyalarda bütün gənclərin fikirləri üst-üstə düşdü. Birincisi, bu sahədə daha səmərəli işləmək respublika gənclərinin yekdil qərarı oldu, ikincisi, daxildəki "sapı özümüzdən olan baltalar"ın əməlləri pislənildi".





**"Yay məktəbi"nin iştirakçısı YAP Ağstafa rayon təşkilatı Gənclər Birliyinin sədri Elvin İmaməliyev qeyd edib ki,** bu layihə biz gənclərə bir daha canlı ünsiyyət qurmağa, fikir mübadiləsi aparmağa, vahid məqsəd ətrafında daha sıx birləşməyə, bəzi hallarda anti-Azərbaycan qüvvələrin şirnikləşdirici vədlərinə aldanaraq səhv istiqamət götürən gənclərin düz yola gətirilməsi üçün çağırışlar etməyimizə şans verdi.

**YAP Şəmkir rayon təşkilatı Gənclər Birliyinin sədri Emin İsmayılov vurğulayıb ki,** partiyanın "Yay məktəbləri" ilk növbədə gənclərin mənalı istirahətini təşkil etməklə yanaşı, onlarda müstəqil fikir yürütmə, söylənilən fikrə qarşı tezislə çıxışetmə, maraqlı və intellektual diskussiyaaparma və s. kimi keyfiyyətləri formalaşdırır.



"Bütövlükdə layihənin proqramına nəzər saldıqda görürük ki, məktəbin iştirakçıları daim fiziki işlə, zehni, intellektual atmosferlə əhatələnir" **deyən YAP Saatlı rayon təşkilatının məsləhətçisi Aqşin Əliyev bildirib ki,** respublikamızın tarixi, görməli yerləri ilə tanışlıq, intellektual və digər profilli oyunlar, maraqlı söhbətlər və diskussiyalar insanın həm dünyagörüşünü zənginləşdirir, həm də hazırcavab insan kimi yetişdirir. Bu unikal bir layihədir ki, gəncliyimiz "Yay məktəbləri"ndən hələ çox fayda götürəcək.



Sonda gənclər bir daha YAP rəhbərliyinə bu cür layihə təşkil etdiyinə görə təşəkkür ediblər, daim Azərbaycan gəncliyinə dəstək olan, onların inkişafı üçün bütün lazımi şəraiti yaradan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Gənclər “Yay məktəbi”ndəki təəssüratlarını bölüşüblər

**Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin Oğuz rayonunda təşkil etdiyi “Gənc liderlər üçün yay məktəbi” layihəsinin ikinci turu gənclərdə xoş təəssürat yaradıb.**

**Həsən Daşdəmirov - YAP Mərkəzi Aparatının məsul işçisi:**



- Azərbaycanın ictimai-siyasi həyatında mühüm rola malik olan Yeni Azərbaycan Partiyası hər zaman gənclərin inkişafı ilə bağlı məsələlərdə fəallığı ilə seçilib. Bu mənada YAP Gənclər Birliyinin üzvləri də daim milli maraqlarımızın qorunması, inkişaf etdirilməsi işində fəallıq nümayiş etdirirlər. Partiyamız tərəfindən həyata keçirilən “Yay məktəbləri” gənclər arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır. “Yay məktəbləri” partiyamızın ən uğurlu layihələrindəndir. Əminəm ki, burada keçirdikləri günlər gənclərimizin yaddaşında xoş xatirələrlə qalacaq.

**Şəfəq Əhmədova - YAP Gənclər Birliyi Ofisinin koordinatoru:**



- Ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların intellektual inkişafına xüsusi qayğı ilə yanaşılır. Gənclərimiz müasir Azərbaycanın inkişafı prosesində fəal iştirak edirlər və partiyamız da hər zaman gənclərimizin öz potensiallarını ortaya qoyması üçün bütün şəraiti yaradır. “Yay məktəbləri” layihəsi də məhz bu mənada seçilir. Burada gənclər həm istirahət edir, həm də partiyamızın keçmişi, bu günü, eləcə də ölkəmizdə aparılan uğurlu dövlət siyasəti ilə bağlı məlumatlar alır, fikir mübadiləsi aparırlar. Biz gənclərə göstərilən diqqət və qayğıya görə partiya rəhbərliyinə minnətdarlığımızı bildiririk.

**İman Ağayev - YAP Xızı rayon təşkilatının Gənclər Birliyinin sədri:**



- Yeni Azərbaycan Partiyasının gənc liderlər üçün təşkil etdiyi “Yay məktəbi”ndə iştirakım, burada mövcud olan gözəl mühit və yeni əməkdaşlıqlar bir gənc kimi məni qürurlandırır və fəaliyyətimi daha da stimullaşdırır. Yaradılan gözəl şərait və gənclərin bir araya gətirilməsi gündən-günə inkişaf edən ölkəmizin avanqard gəncliyinin formalaşmasına böyük dəstək və dəyərlərin qiymətləndirilməsinə böyük nümunə formasıdır. Partiyamızın rəhbərliyinə biz gənclərə yaratdığı bu şəraitə görə minnətdarlığımızı bildiririk.

**Aygün Kazımova - YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin fəalı:**



- Hər zaman gənclərə böyük önəm verən, gənclərin inkişafı, öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün onlara hər cür şəraiti yaradan Yeni Azərbaycan Partiyası, həmçinin partiyamızın Gənclər Birliyi yenə də öz ənənəsinə sadiqdir. Bildiyimiz kimi, YAP Gənclər Birliyi ənənəvi olaraq “Yay məktəbləri” təşkil edir. Bu il təşkil edilən “Yay məktəbi”nin 2-ci Oğuz turunun iştirakçılarından biri də mənəm. Mən öncə partiyamıza, partiyamızın rəhbərliyinə və Gənclər Birliyinə bizlər üçün bu cür şəraitin yaradılmasına görə minnətdarlıq edirəm. Hesab edirəm ki, həm öz potensialımızı daha da inkişaf etdirmək, həm də region gəncləri ilə daha yaxından tanış olmaq üçün bu “Yay məktəbi” də çox yaddaqalan olacaq. Düşünürəm ki, bizlərin burada öyrəndiklərimiz gələcək fəaliyyətlərimizdə əlavə stimul rolu oynamaqla, eyni zamanda, siyasi dünyagörüşümüzün daha da inkişaf etməsinə kömək olacaq.

**Riyad Rüstəmli - YAP Səbail rayon təşkilatı GB-nin sədri:**



- YAP Gənclər Birliyi gənclərin intellektual səviyyəsinin artırılması, onlara vətənpərvərlik, dövlətçilik, azərbaycançılıq ideologiyasının aşılanması, milli-mənəvi dəyərlərin mənimsənilməsi, ictimai-siyasi proseslərdə fəal iştirak etmələri üçün ardıcıl layihələr həyata keçirir. Bunlardan ən əhəmiyyətli olanlarından biri də hazırda ikinci turu keçirilən “Yay məktəbləri” layihəsidir. Bu layihə gənclərin bir-biri ilə ünsiyyətinin daha da artırılması ilə yanaşı, gənclərin partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mühüm islahatlarla, ölkəmizin hərtərəfli inkişafına hədəflənmiş siyasətlə bağlı müzakirələrdə iştirak etməsinə, onların maariflənməsinə şərait yaradır. Buna paralel olaraq “Yay məktəbləri” gənclərin intellektual potensialının artırılmasında da mühüm əhəmiyyət daşıyır. Bizə yaradılan şərait olduqca yüksək səviyyədədir və buna görə partiya rəhbərliyinə xüsusi olaraq təşəkkürümüzü çatdırmaq istəyirik.

**Nuranə Məmmədova - YAP Şamaxı rayon təşkilatı GB-nin sədri:**



- Ölkəmizdə gənclərin inkişafı ilə bağlı mühüm sənədlər qəbul olunur, tədbirlər həyata keçirilir. Bu gün gənclərin vətənpərvər ruhda böyüməsi, onların inkişafı prosesi tam olaraq dövlət qayğısı ilə əhatələnib. Gənclərin inkişafı ilə bağlı yeni proqramlar hazırlanır, xarici ölkələrdə təhsil almaları üçün addımlar atılır. Bütün bunlar çox önəmli məsələlərdir.

**Roza İsgəndərli - YAP Ağdaş rayon təşkilatı GB-nin Şura üzvü:**



- “Yay məktəbi” gənclərin maariflənməsi və siyasi biliklərinin artırılması baxımından vacibdir. Gənclər bir sıra əhəmiyyətli mövzulara toxunaraq ciddi fikir mübadiləsi aparırlar. Bu müzakirələrdə Milli Məclisin deputatları və digər qonaqlar iştirak edirlər. Eyni zamanda, gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədi ilə müxtəlif intellektual oyunlar və idman yarışları keçirilir. Gənclərə belə bir şərait yaratdığı üçün Yeni Azərbaycan Partiyasının rəhbərliyinə təşəkkürümüzü bildiririk.

**Kəmalə Salamova - YAP Qobustan rayon təşkilatı GB-nin sədr müavini:**



- Burada gənclər öz inkişaf səviyyələrini artırmaqla yanaşı, qalıcı dostluq əlaqələri yaradır, Yeni Azərbaycan Partiyasının ətrafında sıx birləşir, partiyamızın uğurlu siyasətinə dəstək nümayiş etdirirlər.

**Vüsal Hüseynov - YAP Xocavənd rayon təşkilatı GB-nin sədri:**



- Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub. Məhz həyata keçirilən dövlət siyasəti nəticəsində gənclərimiz yüksək təhsil alan, elmi bilikləri mənimsəyən, fiziki cəhətdən sağlam, sosial cəhətdən təmin olunmuş, müasir və mənəvi cəhətdən inkişaf etmiş bir mütərəqqi çoxluğa çevrilib. İnanırıq ki, müasir gənclik ölkəmizin gələcək uğurlarında öz rolunu layiqincə oynaya biləcək.

**Emin Ağayev - YAP Xaçmaz rayon təşkilatı GB-nin sədr müavini:**



- Partiyamızın bizə göstərdiyi bu diqqət və qayğı olduqca təqdirəlayiqdir. Eyni zamanda, keçirilən “Yay məktəbləri” gənclərin qarşılıqlı ünsiyyətinin artmasında, rayon gəncləri arasında əlaqələrin intensivləşməsində və fikir mübadiləsində əsaslı rola malikdir. Bir daha bizə belə bir şərait yaratdığı üçün partiya rəhbərliyinə minnətdarlığımızı bildiririk.

**Abbas Pənahov - YAP Nəsimi rayon təşkilatı GB-nin fəalı:**



- YAP Gənclər Birliyinin üzvləri hər zaman öz fəallıqları ilə seçilirlər. Partiyamızın bizə göstərdiyi etimad olduqca böyükdür və bu da üzərimizə xüsusi bir məsuliyyət qoyur. Bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında sosial təbəqə kimi fəal iştirak edirlər. Onlar ən mötəbər kürsülərdən öz sözlərini demək imkanı qazanıblar. Bunun əsasında isə təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasəti dayanır.

**Bəxtiyar Mustafayev - YAP Mingəçevir şəhər təşkilatı GB-nin sədri:**



- Bu gün Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib. Ölkə gəncləri mədəniyyət, incəsənət, elm və digər sahələrdə parlaq nailiyyətlər qazanırlar. Ölkəmizin aparıcı siyasi qüvvəsi olan YAP-ın fəaliyyətində də gənclər siyasəti xüsusi əhəmiyyətə malikdir. Partiyanın Gənclər Birliyi gənclərimizin aktiv ictimai fəaliyyətə cəlb olunması baxımından mühüm addımlar atır.

**Çinarə Qüvvətova - YAP Yasamal rayon təşkilatı GB-nin fəalı:**



- Gənclərimiz dövlətimizin, xalqımızın gələcəyidir. Prezidentimiz tərəfindən müəyyənləşdirilən siyasi kurs müasir, güclü və dünyada öz sözünü eşitdirməyi bacaran Azərbaycan dövlətinin tanınmasında mühüm rol oynayıb. Biz də dövlətimizin, partiyamızın bizə göstərdiyi etimadın qarşılığında üzərimizə düşən vəzifənin məsuliyyətini dərk edirik. Burada gənclərin apardıqları siyasi müzakirələr, diskussiyalar onların gələcək fəaliyyətində əsaslı rol oynayacaq.

**Orxan Vahidoğlu,**
***“İki sahil”***

# Sosial islahatlar istehlak bazarına necə təsir edib?



Hələ bu ilin birinci rübündən başlayaraq həyata keçirilən sosial islahatlar paketinin, o cümlədən minimum əməkhaqqının artırılmasının ölkədə inflyasiyanın səviyyəsinə necə təsir edəcəyi müzakirələrə səbəb olmuşdu. Həmin vaxt belə artımların inflyasiyaya ciddi təsir etməyəcəyi ilə yanaşı, bunun əksi ilə bağlı fikir yürüdənlər də var idi.

Artıq 2019-cu ilin ilk yarısı arxada qalıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu ilin yanvar-iyun aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,5 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 2,7 faiz, qeyri-ərzaq mallarının qiymətləri 1,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 3,2 faiz bahalaşıb.

Konkret iyun ayına nəzər yetirdikdə isə məlum olur ki, may ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,5 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,1 faiz ucuzlaşıb, qeyri-ərzaq mallarının və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri sabit qalıb.

Müqayisə üçün qeyd edək ki, 2019-cu ilin yanvar-may aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,4 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 2,3 faiz, qeyri-ərzaq mallarının qiymətləri 1,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 3,4 faiz bahalaşmışdı.

Cari ilin may ayında isə aprel ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,4 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,1 faiz ucuzlaşmış, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 0,1 faiz bahalaşmış, qeyri-ərzaq mallarının qiymətləri isə sabit qalmışdı.

Mərkəzi Bank faiz dəhlizinin parametrləri barədə son açıqlamasında qısamüddətli dövrdə inflyasiya üzrə risklər balansını tarazlı qiymətləndirib. Bildirilib ki, buraya əlverişli beynəlxalq konyunktur, profisitli tədiyə balansı, tarazlı valyuta bazarı, anti-inflyasion xarakterli monetar şərait və mövsümi amillər aiddir.

Bank ortamüddətli perspektiv üzrə əsas risklərin neftin qiyməti və dünya ərzaq bazarlarında bahalaşması ilə bağlı olduğunu vurğulayıb.

Bununla belə, Mərkəzi Bank inflyasiya riskinin daxili amillərin hesabına reallaşmasından bəhs edərkən bunun sosial xarakterli fiskal stimulların və maliyyə sektoru ilə bağlı qərarların istehlak bazarına və monetar sektora təsirinin miqyasından asılı olacağını bəyan edib. Bildirilib ki, bu faktorların inflyasiyaya ötürücülüyü dərəcəsi tam olaraq ilin sonuna formalaşacaq. Lakin cari ilin yanvar-aprel aylarındakı pərakəndə əmtəə dövriyyəsinin artım tempinin (2,7 faiz) əhalinin gəlirlərinin artım tempindən (5,5 faiz) geri qaldığını nəzərə alaraq ev təsərrüfatlarının hələ ki əhəmiyyətli inflyasiya təzyiqi yaratmayan istehlak davranışı nümayiş etdirdiyini vurğulayıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin sosial siyasətinin davamı kimi növbəti islahatlar paketinin sentyabr ayından etibarən reallaşdırılmasına başlanılacaq. Bununla da əhalinin rifah halının yaxşılaşdırılması, vətəndaş rifahı naminə inqilabi addımların atılmasını təmin edən iki mühüm sosial islahat paketinin həyata keçirilməsi üçün dövlət tərəfindən əlavə olaraq illik 3,9 milyard manat ayrılacaq.

**Ceyhun Piriyev,**
***“İki sahil”***

## Xarici İşlər Nazirliyi ADA Universiteti ilə birlikdə "Azərbaycan diplomatiyası-100 il" adlı diplomatiya həftəsi təşkil edib



Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi çərçivəsində Xarici İşlər Nazirliyi ADA Universiteti ilə birlikdə "Azərbaycan diplomatiyası-100 il" adlı diplomatiya həftəsi təşkil edib.

AZƏRTAC xəbər verir ki, iyulun 15-19-da keçiriləcək diplomatiya həftəsində Azərbaycanın xarici siyasəti və nailiyyətləri ilə bağlı ölkəmizin aparıcı ali təhsil ocaqlarında təhsil alan 50-yə yaxın tələbəyə sahə üzrə daha dolğun məlumatların verilməsi məqsədilə Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin rəsmiləri, eləcə də diplomatik nümayəndəliklərimizin rəhbərləri tərəfindən mühazirə və seminarlar təşkil olunacaq.



Diplomatiya həftəsinin açılışında çıxış edən Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, 100 illik tarixə malik olan Azərbaycan diplomatiyası bu gün böyük uğurlara imza atıb. Diplomatlarımız çalışdıqları ölkələrdə və beynəlxalq təşkilatlarda ölkəmizi layiqincə təmsil edir, Azərbaycanın haqlı mövqeyindən çıxış edirlər. Azərbaycanın dünyadakı mövqeləri möhkəmlənir. Bu gün Azərbaycan çox müsbət beynəlxalq imicə malik olan bir ölkədir. Dünya birliyi tərəfindən Azərbaycana böyük rəğbət bəslənilir.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə təmsil etdiyi təhsil ocağının gənc diplomatların yetişdirilməsində oynadığı roldan danışıb.

Qeyd edək ki, tədbir iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

Tələbələrə ulu öndər Heydər Əliyevin zəngin irsi barədə daha geniş məlumatın verilməsi məqsədilə onların Heydər Əliyev Mərkəzinə ekskursiyası planlaşdırılıb. Habelə Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, baş prodüseri Arzu Əliyevanın olduğu "Əbədi ezamiyyət" sənədli filminin nümayişi nəzərdə tutulub.

# "İnternet və xüsusi kateqoriyalı fərdi məlumatlar - şəxsi həyat"

**Mediada İnnovativ Təşəbbüslərə Dəstək İctimai Birliyi (MİTDİB) iyulun 12-də Astara şəhərində "İnternet və xüsusi kateqoriyalı fərdi məlumatlar-şəxsi həyat" mövzusunda seminar keçirib.**



MİTD İB-nin mətbuat xidmətindən "İki sahil"ə verilən məlumata görə, "Şindan Hotel"in konfrans zalında keçirilən tədbirə Cənub bölgəsində mövcud olan yerli media nümayəndələri, paytaxtda fəaliyyət göstərən KİV-lərin bölgə üzrə təmsilçiləri, həmçinin yerli internet fəalları və QHT-lərin nümayəndələri qatılıblar.

Tədbir Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirilən "İnternet və xüsusi kateqoriyalı fərdi məlumatlar-şəxsi həyat" mövzusunda konfrans və seminarların təşkili" layihəsi çərçivəsində baş tutub.

Layihənin koordinatoru Müşfiq Ələsgərli bildirib ki, xəbər istehsalçılarının "Şəxsi həyat" barədə xəbər hazırlamağın şərtlərinə yanaşmaları problemlidir: "Xüsusi kateqoriyalı fərdi məlumatlar"ın, onun mühüm qollarından olan "Şəxsi həyat"ın qorunması modern dünyada insan hüquqlarının ən önəmli prinsiplərindən biri, həmçinin onlayn medianın trend problemlərindən biri kimi qəbul edilir. Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi "Şəxsi həyatın qorunması"nı ehtiva edir. Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi də "şəxsi həyat"a aid informasiyaların qorunmasına, ona hörmətlə yanaşılmasına təminat verir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155 və 156-cı maddələri başqalarının "şəxsi həyat" prinsipini pozmağa görə cinayət məsuliyyətini nəzərdə tutur. Mövzunun həssaslığını nəzərə alaraq, Milli Məclis "Fərdi məlumatların qorunması" adlı ələhiddə qanun da qəbul edib. Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın 3-cü Prinsipi də "Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığı" mövzusuna həsr edilib.

Amma internetin sürətli inkişaf etməsi ilə bu sahədə problemlər də ortaya çıxıb, "Şəxsi həyat"ın qorunması mövzusu aktuallaşıb. Sosial şəbəkələr , "Şəxsi həyatın qorunması" və digər bu kimi prinsiplərin intensiv şəkildə pozulmasına yol açmaqla, mənfi təzahürləri də ortaya çıxarıb. "İnternet dövründə şəxsi həyatın qorunmasını necə təmin etməli" sualı qlobal səviyyəli müzakirələrin mövzusuna çevrilib. Problemin aradan qaldırılması üçün beynəlxalq təşkilatlar bir sıra modelləri müzakirəyə çıxarıblar. Keçirdiyimiz seminarlarda iştirakçılara bu problemin aradan qaldırılması yolları barədə məlumat verilir."

Müşfiq Ələsgərli əlavə edib ki, layihə çərçivəsində media ekspertləri və hüquqşünasların iştirakı ilə "Xüsusi kateqoriyalı fərdi məlumatlar-şəxsi həyat və KİV" adlı vəsait də çap edilib və seminar iştirakçılarına pulsuz paylanıb.

Tədbirdə çıxış edən media eksperti Nəzirə Nurullayeva şəxsi həyat barədə informasiya yayımının şərtlərinin pozulması nəticəsində yaranan problemlər barədə seminar iştirakçılarını məlumatlandırıb.

# Yeni layihə nələr vəd edir?

**Hesablamalara görə, hər il Bakıda təxminən 1,5 milyon ton məişət tullantısı yaranır. Bu rəqəm Bakı şəhəri genişlənib inkişaf etdikcə daha da artacaq. Bu mənada paytaxtda tullantıların yığılması, emalı və çeşidlənməsi günün aktual məsələsinə çevrilib. Elə bu məqsədlə Bakı Şəhər İcra Hakimiyyəti paytaxtda yeni layihənin - bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsi layihəsinin icrasına başlayıb.**

Böyük Britaniyanın tanınmış "Mott MacDonald" şirkəti ilə birgə hazırlanmış layihənin icrasına 177 min əhalisi olan Nərimanov rayonunda start verilib. Belə ki, pilot layihə çərçivəsində rayonun hər bir məhəlləsində məişət tullantıları üçün yaradılan meydançalara 2 rəngdə - yaşıl və narıncı rənglərdə yeni, müasir konteynerlər quraşdırılıb. Narıncı konteynerlər kağız, karton, şüşə, metal və plastik, yaşıl konteynerlər isə qarışıq tullantılar üçündür.

Nərimanov rayonunun 38 saylı Mənzil-Kommunal İstismar Sahəsində bu layihənin necə icra olunması ilə maraqlandıq. Müsahidələrimizə əsasən əvvəlcədən deyə bilərik ki, daha sakinlər tullantıları hara gəldi, necə gəldi atmırlar. Tullantılar ceşidlənərək narıncı və yaşıl konteynerlərdə cəmlənir. Zibilliklərin dolub daşması, yolun kənarına zibil atılması kimi hallara da bu ərazidə rastlaşmaq mümkün deyil. Həmin ərazinin sakinlərindən biri - Nizami Babaşov bizimlə söhbətində bildirdi ki, rayonun quruculuq və abadlıq işləri ilə daban-dabana zidd olan və estetik görünüşünə xələl gətirən belə hallar artıq arxivə qovuşmaqdadır. O, həmçinin qeyd etdi ki, ölkə Prezidentinin birbaşa təşəbbüsü və himayəsi sayəsində son illər Nərimanov rayonunda bir çox mühüm infrastruktur obyektlərinin inşası vaxtında və uğurla başa çatdırılıb: "Səhiyyə və təhsil müəssisələri, eləcə də yeni inzibati binalar istifadəyə verilib. Yaşayış binalarının milli memarlıq üslubunda yenidən qurulması, yeraltı piyada keçidlərinin, yeni yol qovşaqlarının salınması şəhərin baş planına uyğun olaraq digər infrastruktur layihələrin həyata keçirilməsi işləri bu gün də uğurla davam etdirilir".

38 saylı Mənzil-Kommunal İstismar Sahəsinin mühəndisi İbrahim Əliyev "İki sahil" qəzetinə açıqlamasında əldə olunan nəticəni hazırlıq dövründə həyətlərdə sakinlərlə aparılan maarifləndirici-izahedici görüşlərin nəticəsi kimi xarakterizə etdi: "Həmin görüşlərdə Bakı şəhər və Nərimanov rayon icra hakimiyyətlərinin rəhbər işçiləri, bələdiyyə, təsərrüfat xidmətləri, gənclər və könüllülər fəal iştirak ediblər. Sakinlərin rahatlığı üçün ilkin mərhələdə hər mənzilə yaşıl və narıncı çeşidləyici paketlər və izahedici bukletlər paylanılıb, bloklara, həyətlərə, binalara maarifləndirici reklamlar da yapışdırılıb. Əraziyə cavabdehlər təyin olunub, könüllülər gündəlik maarifləndirmə işlərini davam etdirirlər". Müsahibimiz, həmçinin vurğuladı ki, sanitar-gigiyena tələblərinə uyğun mütəmadi olaraq konteynerlər yuyulur, meydançalar dezinfeksiya edilir.




Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri İsrafil Kərimov mövzu ilə bağlı ona ünvanladığımız suala cavab verərkən paytaxtın artıq dünyanın mədəniyyət mərkəzinə çevrildiyini, hər ay burada müxtəlif səviyyəli beynəlxalq tədbirlərin keçirildiyini, bunun nəticəsində ölkəmizin beynəlxalq arenada müsbət imicinin formalaşdığını vurğuladı. O, Bakının öz təmizliyi və gözəlliyi ilə nümunə göstəriləcək şəhər halına gəldiyini, bütün görülən işlərdə ölkə başçısı cənab İlham Əliyevin müstəsna xidmətləri olduğunu qeyd etdi. Müsahibimizin fikrincə, həyata keçirilən həmin layihə də bu işlərin məntiqi davamıdır.

O daha sonra icrasına iyulun 10-da start verilən layihənin həyata keçirilməsinin ilk günlərində müsbət nəticələr əldə olunduğunu söylədi: "Artıq sakinlər təmizliyə daha ciddi riayət etməyə başlayıblar. Təbii ki, bu, bizim hər birimizi sevindirir. Nəticədə rayondakı çeşidləmə mərkəzinə daxil olan təkrar emal tullantılarının həcmində artım müşahidə olunur. Bunu layihəni hazırlayan "Mott MacDonald" şirkətinin məsul nümayəndəsi də qeyd edib. Onu da deyim ki, gələcəkdə bu layihənin digər rayonlarda da tətbiqi nəzərdə tutulub".

Müsahibimiz, həmçinin bildirdi ki, Bakı mürəkkəb landşafta, küləkli hava şəraitinə və böyük əraziyə malik olmasına baxmayaraq, şəhərin sanitar təmizliyi normal səviyyədədir: "Bu layihənin həyata keçirilməsində əsas məqsəd isə Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması işlərini daha da təkmilləşdirmək, paytaxtı Avropa dövlətlərinin paytaxtları və iri şəhərləri səviyyəsinə çatdıraraq daha gözəl məkana çevirməkdir". İ.Kərimov bu layihənin şəhərimizin təmiz saxlanılmasına, gözəlləşməsinə, ətraf mühitin və sağlamlığın qorunmasına, sanitar mədəniyyətin formalaşmasına və iqtisadi səmərə əldə olunmasına xidmət edəcəyini də əminliklə söylədi: "Layihənin tam şəkildə həyata keçirilməsi işləri 2019-cu ilin sonu 2020-ci ilin əvvəlinə nəzərdə tutulub".

Nərimanov Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyindən verilən məlumata görə, rayon ərazisindən gün ərzində çıxan bütün məişət tullantılarının təxminən 30 faizi təkrar emala gedən materialdır. Yerdə qalan 70 faiz isə emal olunmayan qarışıq tullantılardır.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**Qayka açarlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11115AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanına təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120
USD

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120
EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsini 45 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

Tələb olunmur

***VI. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ 1000, Bakı şəhəri, Səbail rayonu
Neftçilər pr-ti 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
Əlaqələndirici şəxs:
Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**

# Fransa ermənilərin "zəncirini" dartır...



**Vəli İlyasov**

Azərbaycan diplomatiyasının apardığı məqsədyönlü işlər öz bəhrəsini verməkdədir. Uzun illər Fransada ölkəmizə qarşı bəzi dairələrin tətbiq etdikləri ikili standartlar nəhayət, aradan qaldırılmaqdadır.

Son həftələrdə Fransanın bəzi şəhərləri ilə qondarma Dağlıq Qarabağ rejimi arasında imzalanan dostluq xartiyalarının ləğvi Ermənistanı əməlli-başlı narahat edib. Təşviş içərisində çapalayan ermənilər düşdükləri vəziyyətdən çıxış yolu axtarırlar. Onlar yenidən öz ənənəvi məkrli planlarına əl atmalı olublar. Yəni xarici ağalarından nəsə qoparmaq, özlərinin "yazıq" və "əzabkeş" obrazlarını yenidən canlandırmaq üçün dəridən-qabıqdan çıxırlar. "Sherg.az" rəhbəri olan fransızdilli erməni "armenews.com" saytına istinadən xəbər verir ki, Ermənistan bir neçə həftədir, petisiya hazırlayıb və onu imzalama prosesi başladıb. Artıq 400 nəfər bu petisiyaya imza atıb. Hazırda petisiyanın imzalanması prosesi davam edir. Onlar Fransa ilə Ermənistan arasındakı dostluq münasibətlərinin dayandırılmasını istəmədiklərini acizanə şəkildə dilə gətiriblər.

Petisiyanın mətni təxminən belədir:

Fransa inzibati məhkəməsi bu ölkənin bir neçə şəhəri - Valans, Bur -le- Valance, Bur- de Pij, Arnuvil və Drom departamenti ilə Dağlıq Qarabağ rejimi arasındakı dostluq xartiyasını ləğv etdi. Amma erməni xalqı fransızlarla eyni dini - xristianlığı bölüşür. Ermənistan və ermənilər Avropa dəyərlərini üstün tutur. Fransız və erməni xalqlarının dostluğu çoxəsrlik tarixə söykənir.

Hətta XVII Frankofoniya bayramı İrəvanda baş tutdu. Fransa bunu böyük rəğbətlə qarşıladı. Bu, Fransa-Ermənistan dostluğunu əks etdirirdi. Bu gün Fransada 700 min erməni yaşayır. Daha sonra petisiyada yazılıb: "Biz arzu edərdik ki, siz bu dostluq xartiyasını yenidən bərpa edəsiniz. Azərbaycan ondan silah alacaq deyə Fransa bir necə şəhərimizlə dostluğunu dayandırdı. Biz bu dostluğun daimi olacağını, bizə nəyinsə mane ola bilməyəcəyini düşünürdük. Amma bu gün Fransa inzibati məhkəməsi bizə əməlli-başlı atəş açır.

Biz əlaqələrin inkişafını istəyirdik, amma bunun əksi yaşandı. Bu gün Fransanın Azərbaycana satdığı silahlar Dağlıq Qarabağda yaşayan minlərlə ermənin həyatını təhlükə altına almaq deməkdir. Hesab edirik ki, Fransa məhkəmələrinin məlum qərarı bizim üçün böyük təhlükə vəd edir. Biz Fransanın Azərbaycana silah satmasını qəbul edə bilmirik.

Fransanın bizim bir neçə dostluq xartiyasını ləğv etməsinə " yox" deyirik."

Qeyd edək ki, bu xartiyaların ləğv olunmasının səbəbləri kimi onların Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə uyğun gəlməməsi, həmçinin bu ölkənin ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi bitərəfliyini şübhə altına alması göstərilir. Aydın görünür ki, hər iyrənc sifətə girməyi bacaran ermənilər yalvarışlarının sonunda öz yırtıcı xarakterlərini gizlədə bilməyiblər və hətta Fransanı Azərbaycana silah satmaqda ittiham edərək bu dövlətin daxili işlərinə müdaxilə etməkdən belə çəkinməyiblər.

Petisiyanın mətnində göstərilir ki, guya Fransada 700 min erməni yaşayır. Sual yaranır: Azərbaycanın Dağlıq Qarabağ bölgəsində cəmi 40-45 min erməni yaşadığına görə burada ikinci erməni dövləti yaratmağa cəhd göstərən Ermənistan 700 min ermənin yaşadığı Fransada üçüncü Ermənistan dövləti qurmağa hazırlaşmır ki? Fransa şəhərləri ilə qardaşlaşmağa belə önəm verilməsi bəlkə ermənilərin həmin planlarına xidmət edir? Tarix dəfələrlə sübut edib ki, ermənilər axırda onlara küt atan sahiblərinin ayaqlarını dişləyib gəmiriblər. Yəqin indi fransızlar ermənilərin bu xislətini bildikləri üçün hədlərini aşan kimi onların zəncirlərini dartıblar. Bu isə daim əzizlənməyə öyrəşmiş erməniləri məyus edir.

# NAXÇIVANDA QƏHRƏMAN ANANIN 100 YAŞI QEYD EDİLİB



Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Camaldın kəndində yaşayan və 10 övladı, 44 nəvəsi, 94 nəticəsi, 18 kötücəsi olan Həqiqə İsgəndərovanın 100 yaşı qeyd edilib.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Həqiqə İsgəndərova ilə görüşdə Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Sara Hüseynova və Culfa Rayon Əhalinin Sosial Müdafiə Mərkəzinin direktoru Mustafa Cəlilov yubilyarı 100 yaşı münasibətilə təbrik ediblər. Tədbirdə yubilyara hədiyyə təqdim olunub. Həqiqə İsgəndərova və oğlu Talıb İsgəndərli göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Həqiqə İsgəndərova 1919-cu il iyul ayının 1-də Camaldın kəndində anadan olub. O, 1967-ci ildə "Qəhrəman ana" adına layiq görülüb. Həqiqə İsgəndərova həm də arxa cəbhə veteranıdır.

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azəriqaz" İstehsalat Birliyi

**Nişan və plakatlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29022-19) elan edir.**

***I.Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 15.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II.Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 22.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III.Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120 (AZN),
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Xaricdən və valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:
TAX İD: 9900003871
AZ08IBAZ38110019789306332120 (EURO)
Vasitəçi bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
AZ28IBAZ38110018409306332120 (USD)
Vasitəçi bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 60 təqvim günü müddətində yerinə yetirilməsi tələb olunur.

***V. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
Əlaqələndirici şəxs:
Hüseynova Nərmin Cabbar qızı
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994125210000 (daxili 29491)
+994124904272 (faks)
Narmin.Huseynova@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***VIII. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 22.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da, elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İstehsalat Birliyinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azəriqaz" İstehsalat Birliyi

**Quma (xırda dənəli) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29023-19) elan edir.**

***I.Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 15.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II.Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 22.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III.Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
* Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120 (AZN),
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Xaricdən və valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:
TAX İD: 9900003871
AZ08IBAZ38110019789306332120 (EURO)
Vasitəçi bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
AZ28IBAZ38110018409306332120 (USD)
Vasitəçi bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV.Təminatlar:***
Müsabiqə təklifinin təminatı:
*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*
*II.Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III.Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV.Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
Avans ödənişinə görə təminat:
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
Müqavilənin yerinə yetirilməsi təminatı:
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V.Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin Azərbaycan Respublikası ərazisində (regionlarda) təyinatı üzrə çatdırılması və 1 il ərzində sifariş verildikcə yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
Əlaqələndirici şəxs:
Nuriyeva Aytən
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin mühəndisi
+994 12 521-00-00 (daxili 29 490)
ayten.e.nuriyeva@socar.az

***VIIIElanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IXSatınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 22.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da, elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***XSatınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# Çağla Heydər Dühası!

*"... Azərbaycana məhəbbət, xalqıma məhəbbət mənim qanımdadır,beynimdədir, varlığımdadır... Heç kəs, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz..."*

**HEYDƏR ƏLİYEV**

*"Azərbaycan xalqının görən gözü, düşünən beyni, danışan dili, vuran ürəyi Heydər Əliyevin ideyaları əbədi müstəqillik yolunda sönməz məşəldir..."*

**Həsən Şirinov**

### Sönməz, əbədidir Heydər Əliyev

Mələklər qoynunda imdada çatan,
Xalqın nicat yolun xalqa anladan,
Müqəddəs bu yolda təkcə can atan
İlahi qüvvədir Heydər Əliyev!

Qılıncın qənimi, qələmin qulu,
Haqqın dərgahında uludur, ulu!
Sevdiyi Vətəndir, bir Allah yolu
Sönməz, əbədidir Heydər Əliyev!

Həsən deyər, haqq sözünü elinən,
Xalq sevgisi qazanılmır dilinən.
Dünyada hər yerdən görünə bilən,
Əlçatmaz zirvədir Heydər Əliyev.

### ÇAĞLA, HEYDƏR DÜHASI

Arzumuzdan doğuldun,
Ürəklərdir həmdəmin.
Qızılgüllər, təzətər
Çiçəklərdir həmdəmin.
Nurlu qəlbin cənnətdir,
Mələklərdir həmdəmin.
Ömrə ömür calayan
Elin sevinc dünyası!
Sən əbədi həyatsan,
Çağla HEYDƏR dühası!

Könüllər məlhəmidir
O şirin kəlmələrin.
Gələcəyə səsləyir
Xalqını əməllərin.
Bəzək oldun hüsnünə
Sən axşamın, səhərin.
Ömrə ömür calayan
Elin sevinc dünyası!
Sən əbədi həyatsan,
Çağla HEYDƏR dühası!

Tanrı özü bəxş edir
Ellərə xilaskarı.
Dərələrə gur çayı,
Güllərə bulaqları.
Uca dağlar başına
Qıy vuran qartalları.
Ömrə ömür calayan
Elin sevinc dünyası
Sən əbədi həyatsan,
Çağla HEYDƏR dühası!

Millət üçün varlığın,
Müqəddəs bir ziyarət!
Amalın xalqa, elə
Əbədi bir məhəbbət!
Heydər millət atası!
İlahidən bir qüdrət!
Ömrə ömür calayan
Elin sevinc dünyası!
Sən əbədi həyatsan,
Çağla HEYDƏR dühası!

Həsən, vətən oğlunun
Vüqarına heyranam!
Torpağımı yaşadan
Baharına heyranam!
Sınaqlardan düz çıxan
İlqarına heyranam!
Ömrə ömür calayan
Elin sevinc dünyası!
Sən əbədi həyatsan,
Çağla HEYDƏR dühası!



### AXTARIR SƏNİ

Xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə ithaf edirəm

Nə müddətdir könlüm yaman darıxır,
Gözlərim hər yanda axtarır səni.
- Xəyalım dolanır göylərə qalxır,
Göylərin qatında axtarır səni!
Ey Ulu Öndər!

Bu bir ayrılıqdır, sonu görünməz,
Sirli dünyamızdır, yolu bilinməz,
Ora gedən bir də geriyə dönməz,
Tanrı dərgahında axtarır səni!
Ey Ulu Öndər!

Xalqını çıxardın ağ günə, demək,
Bəhərin dadmağa qoymadı fələk,
Dövlətə, xalqına İlhamdır gərək!
Onun timsalında axtarır səni!
Ey Ulu Öndər!

Ha qaçım, çalışım ta sənə yetməm,
Sənsiz bu həyatda mən bir yetiməm,
Çətin ki, bir daha ürəkdən güləm,
Həsən bu halına axtarır səni!
Ey Ulu Öndər!

### İnamın gücü

Ümiddir insanı yaşadan, dədə
Ümid də dayanır inam üstündə.
İnamsa bir gül tək saf ülvi hissdir,
O yalnız həqiqət üstündə bitir!
Həqiqət, həm inam, ümid oldun sən!
Xalqımın işıqlı gələcəyisən!
Bəşər tarixində olmamış bəlkə
Azərbaycan kimi elə bir ölkə.
Min bir bəlalardan, oddan, alovdan,
Keçərək qurtara özün buxovdan.
Xilaskarı oldun bu doğma yurdun,
Sülhün, azadlığın taxtını qurdun.
Qaytardın millətin özün özünə
Dilini özünə, sözün özünə
Sarsılmış inamın, ruhun sağaltdın.
Qorqudu anlatdın, yolun yaşatdın
Yenidən dirçəltdin, qurdun, yaratdın
Millətin adını göyə ucaltdın!
Bütün dünya baxır qibtəylə bizə!
Düşmüsən əbədi tariximizə!
Vətən, xalq yolunda keçmisən candan,
Doğuldun günəştək Azərbaycandan!
Nurun türk dünyasını qoynuna aldı...
Düşmən qüvvələri təşvişə saldı!
Bu nurun mənbəyin söndürsün deyə
Keçdilər əlaltı səfərbərliyə.
İşləri bu yolda müşkülə döndü,
Hara əl atdılar Heydər göründü!...
Daxildən, xaricdən hər fitnə, hər şər,
Birləşib hədəf də səni seçdilər.
Lakin gördülər ki, ölkədə bir tək,
Sənə olan İNAM qalib gələcək
Odur ki, vicdanı atıb keçdilər,
İnamı sarsıtmaq yolun seçdilər!
Belə ki, daxildə aranı vurmaq!
Xalqın sənə olan İNAMIN qırmaq!
Bəli, inamsız xalq - sönmüş bir ocaq
Ondan da daha nə isti olacaq?
Bütün şər qüvvələr buna yüklənib,
KİV-lər də "Azadlıq" üstə köklənib...
Üstəlik yerlərdə real vəziyyət
Min bir oyun ilə edilir xəlvət.
Millət döndərilir neytronlara
Nüvə ətrafında elektronlara.
Məmur da göstərir buna "sədaqət"
Düşməndən də artıq edir xəyanət!
Xalqın taleyilə oyun oynayan,
Heydər dühasını anıb "qanmayan",
Beyni mədəsində olan nadanlar,
Vəzifə naminə xalqı satanlar,
Müxalif adı ilə casus, xainlər
Birgə bu məqsədə xidmət edirlər.
Mən də car çəkirəm Azərbaycana
Xalqın yatmışları varsa oyana!..
Bilə ki, varlığın bir qələbədir.
Sənə dəyən zərbə - elə zərbədir!
Bunlardır Həsənə verən əziyyət
Susmağın özü də olar xəyanət!

1998-ci il.
Prezident seçkiləri ərəfəsində

### Bağışla, dədə!

*Azərbaycan Prezidenti Heydər Əliyevin Sədərəkdə R.Koçaryanla görüşü münasibətilə*

Nadanlar səhvindən torpaqlar gedib
Sənsə qaytarırsan qarışla, Dədə!
Pis övladın zəhmətin çəkən ata tək,
Nə olar, bizi də bağışla, Dədə!
Bilirəm nə çəkir o böyük ürək,
Hər dəfə düşmənlə gözə gələndə!
Zirvələr zirvəsi o dahi Heydər
Göylərdən birbaşa yerə enəndə!
O dağ əzəmətli vüqarınla sən
Həyatda heç kimə əyilməmisən!
Ancaq xalq yolunda, Vətən yolunda
Bu nədir? Canını qurban vermisən!
Məqsədin, məramın xalqa bəllidir
Bütün addımların düz əməllidir!..
Odur ki, dünyanın hər yerində də
Varlığın millətə güc, təsəllidir!..
Dünya heyran qalıb məharətinə!
Vətənə, xalqına məhəbbətinə!
Yaratdığın yeni Azərbaycana -
Müstəqil dövlətə sədaqətinə!
Heydər tək uzağı görən,
Millətə dar günü qurtuluş verən,
Düşmən qüvvələrə tək sinə gərən
İkinci bir insan varmıdır görən?!
Gəzib dolansan da bütün dünyanı
Tapmaq mümkün deyil o cür insanı!
Fitri istedadlı elə bir dahi
Yaradarmı görən bir də İlahi?!
Bu haqq qarşısında öyünən həmən,
Özündən bixəbər, deyən mənəm-mən
"Türk olub" erməni südünü əmən,
De, səndə heç vicdan varmıdır görən?!
Heydər zəhmətini vuranlar yerə
Yoxlasan, heç zaman türk ola bilməz!
Qul olan nökərdir ermənilərə..
Hazırdır həmişə böhtana, şərə...
Bəşər tarixində səhifələr gəz -
İgidlik rəmzidir türklər, əyilməz!
Həsən, hafizəni zamanlar silməz,
Heç kim müdrik xalqı çaşdıra bilməz.
Yığılsa da bütün dünya bir yerə
Heydər paklığına xal vura bilməz!

14.08.2002

### Nəsihət

Oğlum, əməlinlə şərəfi qoru,
Ki sən ol ən təmiz, sudan da duru!
Gecə-gündüz çalış hər elmi ara,
Xalqının xeyrinə, şərinə yara!
Ulu Heydər yolu məqsədin olsun!..
Dühası, zəkası məbədin olsun!
Elə şəxsiyyətlər az-az yetişər
Ki onun üzündən gül açsın bəşər.
Odur alçalmadan yüksəyə qalxan.
Haqsızlıq önündə yenilməz qalxan.
Kişilik rəmzidir, xalqın nəqşidir,
Qurtuluş yolunda Tanrı bəxşidir.
Alçala-alçala yaşamaqdansa
Ucala-ucala ölmək yaxşıdır.
Vətən oğlu ikən ehtiyatlı ol!
Hamıya xoş gəlməz tutduğun bu yol!
Səbəb o deyil ki, sən incidəsən-
Kimisə özünə düşmən edəsən!..
Paxıl ikrah edər şan-şöhrətindən,
Düşmənin kəsilər küdurətindən!
İstəsən səninçün düşmən yox olsun!
İnsanlar içində dostun çox olsun...
Sən haqqı nahaqqa qurban eyləmə!
Heç zaman, heç kəsə nahaq söyləmə!
Mən düzəm, təmizəm, sözünü belə!
Dilinə gətirib car çəkmə elə!
Bil ki, bu həyatda çoxdu namərdlər,
Nəinki mərdliyi, düzü sevənlər.
Çünki bu təmizlik qarşısında hər
Riyakar necə var, elə görünər!
Odur ki, əyrilər düzdən çəkinər,
Hər kəsin onun tək olmağın istər...
Cəhənnəmə gedən vicdanın danar!
Özünə həmişə yoldaş axtarar...
Çalış ki, zahirən onlar tək görün,
"Palaza bürünüb el ilə sürün"!
Ki səndən naqislər qorxub, hürkməsin,
Səni təmiz görüb pislik etməsin!..
Onda bil, namərdlər düşmənin olmaz-
Əkdiyin gül-çiçək baharda solmaz!
Həsən insanlığın qeydinə qaldı,
Həyatda gördüyün qələmə aldı...
Ki fani dünyada hər kəs özünü
Görüb, ibrət etsin, sevsin düzünü!..

### İzhar edirəm

Hərəkətdə heç zaman, sahili zənn etmə, oğul,
Oturduğun gəmidir, sənə nisbət o sahil.
Dünya əski dünyadır, dəyişənsə hey zaman,
Atılır bir-bir oxlar, qalır yerində Kaman.
Eyni bir həyat anı, edilir dərki zaman,
Müxtəlif cür anılır ötdükcə dövri-zaman.
Ağıllılıq o deyil, bildirəsən özünü,
Fitri istedadını, iti görən gözünü.
Gərdişi dövrana bax, açma sözün düzünü.
Yeri gəlsə məqamı avam göstər özünü.
Düşünmə ki, xalqını çox sevirsənsə əgər,
Bunu duyan hamı da səni istər, mütəssər...
Qibtə, paxıllıq içrə alışıb-yanan kəslər,
Xəbərin də olmadan sənə düşmən kəsilər,
Sevməməkdən daha çox sevmək xəta gətirər,
Ki bu sevgi rəğbətin ünvanı şahsa əgər?!
Bu yüksək keyfiyyətlər varsa da bir "ləkədir"!
Əqidəsizlər üçün çünki bu təhlükədir!...
Başıma gələnləri görüb izhar edirəm,
Mənsə düz yolda ikən bunu israr edirəm.
Baxıb atan Həsənə, qoru ülvi hissləri,
Yaxına buraxma sən əqidəsiz kəsləri.

### Ölməz oldun

Bir ömür yaşadın əsrə bərabər,
Xalqını yaşatdın, sən ölməz oldun!
Vətən, xalq yolunda alışdın, yandın,
Günəş tək parladın, sən sönməz oldun!
Düşmən qüvvələrə tək sinə gərib,
Qurtuluş yolundan sən dönməz oldun!
Bəşər tarixində bir lider kimi,
Siyasi meydanda yenilməz oldun!
Xalqının qəlbində öz abidəni
Əbədi ucaldıb silinməz oldun!

**Həsən Şirinov**

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Neftqaztikinti" Tresti

"Azneft" İB-nin "28 May" NQÇİ-nin Dübəndidə yerləşən Neftin Tam Hazırlanması və Təhvili Sahəsinin yeni əmtəə çənləri parkında avtomatlaşdırılmış yanğınsöndürmə sisteminin yenidən qurulması" (Sifariş №11255) obyektinin tərkibində 1 ədəd həcmi V=1000 m3 və 2 ədəd həcmi V=100 m3 olan su çənlərinin, "Neft Kəmərləri" İdarəsinin "Dübəndi İstehsalat Bölümünün Buxar və Su ilə təminat sahəsində yerləşən qazanxananın su təchizatı üçün istifadə olunan 1 saylı RVS=1000 m3-luq su çəninin yenidənqurulması" (Sifariş №11537) və "Dübəndi İstehsalat Bölümünün Buxar və Su ilə təminat sahəsində yerləşən qazanxananın su təchizatı üçün istifadə olunan 2 saylı RVS=1000 m3-luq su çəninin yenidənqurulması" (Sifariş №11538) obyektləri tərkibində 2 ədəd həcmi V=1000 m3 olan su çəninin zavod şəraitində hazırlanması işlərinin satın alınması təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25005-T- 19) elan edir.

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət: (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi: (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifi: Bağlı zərfdə (3 nüsxə,1 əsli,2 surəti);

Müsabiqə təklifinin qüvvədə qalmasına dair bank təminatı: 8000 (səkkiz min) manat (ƏDV-siz).

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyasının etibarlılıq müddəti müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü olmalıdır.

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası müsabiqə təklifinin 3%-i həcmində olmaq şərtilə, 14.08.2019-cu il , Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Əks halda iddiaçının müsabiqə təklifi olan zərf açılmadan geri qaytarılacaqdır.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.08.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan dilində (tələb olunan əcnəbi dil) Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 14.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 472 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN 9900003871
Müştəri Xidməti Deportamenti,
Kod:805250,
Müxbir hesabı: AZ03NABZ01350100000000002944
VÖEN 9900001881
SWIFT BIK: İBAZAZ2X.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 iş günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

1018, Bakı, Xətai rayonu, 2922-ci məhəllə Zığ yolu küçəsi "41C"
"Neftqaztikinti" trestinin inzibati binası
Əlaqələndirici şəxs:
Yavər İbrahimov
LİOŞ şöbə rəisi
(994 12) 5210760 (mobil 0508425060)
yaver.ibrahimov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 14.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

# Xəyanətkar, riyakar...

## DÜŞMƏN DƏYİRMANINA SU TÖKƏN ƏLİ KƏRİMLİLƏRDƏN DÖVLƏTİN, XALQIN MARAQLARINA UYĞUN ADDIM GÖZLƏMƏK SADƏLÖVHLÜK DEYİLMİ?

Azərbaycanın uğurlarını həzm etməyən xarici anti-Azərbaycan qüvvələrin öz çirkin məqsədlərini həyata keçirmək üçün daxili bədxahlarımızdan bir vasitə kimi bəhrələnmələri məlum olaylardandır. Siyasi qul imiclərini xəyanətkar əməlləri ilə zaman-zaman daha da zənginləşdirən bu ünsürlər ictimai diqqəti özlərindən yayındırmaq üçün nə qədər dəridən-qabıqdan çıxsalar da heç gözləmədən ortaya çıxan hansısa bir məqam onların bu cəhdlərini mümkünsüz edir.

AXCP sədri Əli Kərimlinin "Meydan TV"-yə müsahibəsində ermənilərə dəstəyi, Azərbaycana isə qərəzi ortaya qoyan fikirləri ona qarşı bü günə qədər formalaşmış mənfi rəyi birə on qat artırdı. Belə ki, həmin müsahibədə Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın dəyişməz mövqeyi arxa plana keçirilərək, ermənilərə xoş gələn ifadələrə üstünlük verilmişdir. Bu məqam da diqqətdən kənarda qalmamışdır ki, ümummilli məsələlərin həllində əhəmiyyətli rol oynayan hakimiyyət-müxalifət dialoqunun gərəksizliyi vurğulanaraq, erməni diasporunun dəstəyi əsasında fəaliyyət göstərən Qərb qurumlarından sifariş gözlənildiyinə işarələr vurulmuşdur.

Həmin müsahibədə Azərbaycan zəif, Ermənistan isə güclü dövlət kimi təqdim edilmişdir. Ən əsası Azərbaycan Ordusunun gücünə, qüdrətinə inamsızlığın formalaşdırılmasına edilən cəhdlər diqqətdən kənarda qalmamışdır. Belə mövqe tutan bir şəxsin özünü Azərbaycan vətəndaşı kimi təqdim edib vətəndaşlıq təəssübkeşliyindən çıxış etməsi nə dərəcədə real görünə bilər?

Ə.Kərimlinin bu il 20 Yanvar hadisələrinin, onun ardınca Xocalı soyqırımının anım günündə özünü vətənpərvər ruhda göstərmək cəhdi də bu müsahibəsində söylədiklərinin fonunda daha aydın nəzərə çarparaq, ssenarilərin müəllifinin kimlər olduğuna işıq saldı.

Daim vurğulandığı kimi, ümummilli məsələlərdə iqtidar-müxalifət münasibətləri bir kənara qoyulub ümumi mövqe ortaya qoyulmalıdır. Amma arxada qalan illərə diqqət yetirdikcə dağıdıcı düşərgənin təmsilçilərinin, xüsusilə Əli Kərimlinin bu kimi məqamlarda bir bəhanə ilə kənara çəkilməsi diqqətdən kənarda qalmayıb. Amma bir az çətinə düşən kimi, yaxud ictimai fikirdə "biz də varıq" demək naminə dərhal hakimiyyəti Dağlıq Qarabağ probleminin həlli prosesinin uzanmasında ittiham etməyə, özlərini xalqa yaxın, ən əsası vətənpərvər göstərməyə çalışırlar.

Əli kərimlilərin düşmən dəyirmanına su tökdüyünü təsdiqləyən xeyli sayda faktları ortaya qoymaq olar. Bir müddət öncə Norveçin Azərbaycandakı keçmiş səfiri Steynar Gil sosial şəbəkələrdə Azərbaycan dövləti, xalqı barədə qərəzli fikirləri ilə gündəmdə oldu. Radikal qütbün təmsilçiləri, xüsusilə də Əli Kərimli süstlüyü ilə diqqət çəkdi. Yuxarıda qeyd etdiyimiz kimi, ümummilli məsələlərdə birliyin tərəfdarı, vətənpərvər kimi özlərini ictimai fikrə sırımaq üçün Xocalı soyqırımının anım günündə, həmçinin 20 Yanvar hadisələrinin ildönümü ərəfəsində görünüb, açıq-aşkar qarşıdurma yaratmaqda və bunu beynəlxalq təşkilatlara ünvanlamaqda maraqlı olan əli kərimlilər Steynar Gilin dövlətimizə, xalqımıza yönələn qərəzli açıqlamalarına, ən əsası erməni dəstəyinə susmaqla, biganəliklə münasibət bildirdilər. S.Gilin radikal müxalifətin yaxın dostu, daha dəqiq desək, ölkədə qarşıdurma yaratmaq ssenarisinin müəllifi olduğu heç kəsə sirr deyil. Səfirlik missiyasının mahiyyətinin nədən ibarət olduğunu son anınadək zərrə qədər dərk etməyən bu şəxsin məqsədi ancaq və ancaq dağıdıcı müxalifətlə və "hüquq müdafiəçiləri" ilə gizli görüşlər keçirmək, onları təlimatlandırmaq idi. S.Gil 2016-cı ilin aprel hadisələrindən sonra sosial şəbəkədə paylaşmışdır ki, guya Azərbaycan hərbçiləri məhv etdikləri düşmən əsgərlərinin meyitlərinə qarşı alçaldıcı hərəkətlər ediblər. Aparılan araşdırmalar nəticəsində bəlli olmuşdur ki, paylaşılan şəkil Azərbaycan hərbçisinə məxsus deyil. Cari ildə isə S.Gil guya azərbaycanlıların erməni qəbirlərini dağıtdığını yazdı, hətta bir qədər də irəli gedərək ermənilərin tarixi saxtalaşdırma xəstəliklərinə dəstək olaraq, ermənilərin soyqırımına məruz qaldıqlarını əsassız şəkildə qeyd etdi. S.Gilin bu ünsürlərlə dostluğundan əlavə ermənilər və ermənipərəst qüvvələrlə işbirliklərindən qaynaqlanan həmrəyliklərini də təsdiqləyən xeyli faktlar mövcuddur. Əkrəm naibovlara, rüstəm ibrahimbəyovlara erməniləri müdafiə etdiklərinə görə dəstək olan əli kərimlilər S.Gilə daha böyük qucaq açaraq erməni sevgisini ortaya qoydular. Qanında azərbaycanlı qanı axan "sapı özümüzdən olan baltalar" erməniləri müdafiə etmək yolunu tutmaları ilə riyakarlıqlarını, öz şəxsi ambisiyalarını dövlətin, xalqın maraqlarından üstün tutduqlarını etiraf edirlər.



Hər zaman vurğulandığı kimi, insanın xarakteri, keyfiyyətləri zaman-zaman deyil, elə dünyaya gəldiyi andan formalaşır. Demək "sapı özümüzdən olan baltalar"ın erməni sevgisi də dünənin, bu günün işi deyil. Vətəndaşlıq təəssübkeşliyi olan şəxs hadisələrin təhrifindən vicdan əzabı çəkər, təkcə Xocalı soyqırımını xatırlamaqla şəxsi ambisiyalarının quluna çevrilmələrindən, Vətənə xəyanət əməllərindən utanc hissi keçirərlər. Lakin hadisələrin cərəyan etməsindən görünür ki, belə keyfiyyətlər mənliyini itirmiş, ermənilərin, erməni diasporunun əlində bir vasitəyə çevrilmiş düşmən dəyirmanına su tökənlər üçün yaddır. 200 illik tarixi öyrənməyə ehtiyac yoxdur. Ən yüksək tribunalardan Azərbaycanın dəyişməz mövqeyini bəyan edən rəsmi Bakı bir qarış torpağımızın belə düşmənə verilməyəcəyini bildirir. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, ola da bilməz. Bu mövqeyimizi beynəlxalq səviyyədə dəstəkləmək əvəzinə, erməniləri müdafiə etmək, ordumuzun gücünə şübhələr yaratmağın bir adı var - xəyanətkarlıq, riyakarlıq.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

NEFT TARİXİMİZ...

# Azərbaycan neft sənayesi

## (1946-1969-cu illərdə)

Əvvəli ötən sayda

1950-1960-cı illərdə dəniz axtarış-kəşfiyyat qazma işlərinin texnika-texnologiyası, hidrotexniki neft qurğularının tikintisi, dəniz neft hasilatının infrastrukturu müvəffəqiyyətlə inkişaf etdirilirdi. Bu illər Xəzər dənizinin əsas neft-qaz strukturları müəyyənləşdirildi. İri bloklu dəniz özüllərinin tətbiqi - "Pirallahı", "Darvin Bankası", "Gürgan-dəniz", "Çilov-dəniz", "Palçıq pilpiləsi", "Səngəçal-dəniz", "Duvannı-dəniz", "Bulla adası", "Cənub", "Bahar" və başqa yeni neft yataqlarının sənaye istehsalına daxil edilməsinə imkan verdi. Bu strukturların bir çoxunda hələ 1949-1950-ci illərdə kəşfiyyat işləri aparılmışdı, lakin sənaye əhəmiyyətli neft və qaz alınması mümkün olmamışdı. Yalnız neft-qaz strukturlarının kəşfiyyatının geoloji-geofiziki üsulları düzgün seçildikdən sonra açılmış yataqların birbaşa qiymətləndirilməsinə və istismara verilməsinə imkan yarandı.



Kompleks mühəndis və elmi-texniki tədbirlərin tətbiqi sayəsində bu yataqlara xeyli əsaslı kapital qoyuluşu həyata keçirildi, yüksək əmək məhsuldarlığı əldə edildi, hasil edilən neftin maya dəyəri aşağı salındı.

Lakin 1953-cü ildə Stalinin ölümündən sonra SSRİ rəhbərliyində baş verən hərc-mərcliklərdən istifadə edən, İttifaqın rəhbər dairələrində məsul vəzifələr tutan və Azərbaycan xalqına qarşı qərəzli mövqedə olan bəzi bədxah qüvvələr Azərbaycan neft sənayesinin inkişaf prosesini zəiflətmək üçün bütün səviyyələrdə fəallıq nümayiş etdirdilər və buna müəyyən qədər nail oldular. Həmin qüvvələr SSRİ rəhbərliyinin ən yüksək rütbəli məmurlarının nəzərinə çatdırmağa çalışırdılar ki, guya Azərbaycanda neft sənayesi artıq tənəzzülə uğramışdır və gələcəkdə heç bir perspektivə malik deyil. Bu qərəzli kampaniyanın nəticəsində 1954-cü ilin 9 iyulunda SSRİ Nazirlər Sovetinin "Neft sənayesinin inkişafı ilə bağlı tədbirlər haqqında" verdiyi qərarla, 1955-ci ildə Azərbaycan neft sənayesinə ayrılan əsaslı kapital qoyuluşunun həcmi birdən-birə 2,2 dəfə azaldıldı. Bununla bağlı, həmin il 1954-cü illə müqayisədə neft hasilatı 2,2 dəfə, kəşfiyyat qazmasının həcmi isə 4,4 dəfə azaldı. Kapital qoyuluşunun kəskin aşağı salınmasına baxmayaraq, 1955-ci ilin neft-qaz planı əvvəlki səviyyədə saxlanılırdı ki, bu da uzun illər boyu amansız istismar olunan neft yataqlarını daha da pis vəziyyətə salırdı. Bu qərar təkcə Azərbaycan neft sənayesinə deyil, onun ümumi iqtisadiyyatına və gələcəyinə vurulan ağır zərbə idi. Belə ki, ölkənin iqtisadi potensialının əsas bazası olan ağır sənaye sahələrinin inkişafı birbaşa (neft-qaz çıxarma və onun infrastrukturu, neft emalı, neft-kimya, neft-maşınqayırma, energetika və digər sahələr) neft və qaz hasilatının artması ilə bağlı idi və bu qərəzli fikirlər həyata keçirilsə idi, respublikanın gələcəkdə sənaye ölkəsindən aqrar ölkəyə çevrilməsi təhlükəsi ortaya çıxırdı. Bu isə Azərbaycan xalqının intellektual və elmi-texniki səviyyəsinin inkişafına ciddi təsir göstərə bilərdi. Bu azmış kimi, yuxarıda haqqında danışdığımız qərarın ardınca 1956-cı ilin sonunda SSRİ Plan Komitəsinin sədr müavini Mkrtıçyan Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədri N.Şvernikə Azərbaycan neft sənayesinin ölkə iqtisadiyyatı üçün səmərəsiz olduğu barədə müraciət məktubu göndərir və əsas dəlil kimi guya Azərbaycan neftinin maya dəyərinin çox yuxarı olmasını göstərir. Əlbəttə, bu heç bir çərçivəyə sığmayan ağ yalan idi və yalnız təxribat kimi qiymətləndirilməlidir. Yalnız Azərbaycan rəhbərliyinin işə qarışması və SSRİ rəhbərliyinin vəziyyəti düzgün qiymətləndirməsi nəticəsində bu təxribatın qarşısı alınır.

Bütün bunlara baxmayaraq Azərbaycan neftçiləri yorulmadan çalışır və yeni uğurlar qazanırdılar. 50-ci illərin ortalarında "Dənizneftlayihə" institutunun əməkdaşları dənizin 20-26 metr dərinliyində qazma işləri aparmaq üçün qurğunun layihəsini hazırladılar və 1957-ci ildə bir qurğu hazırlanıb istismara verildi. 1958-ci ildə isə institutun layihəsi əsasında "Qipromor" adlı yeni fərdi özüllər hazırlanıb bu cərgəyə daxil edildi. 50-ci illərin sonunda Xəzər dənizinin 10 yatağında kəşfiyyat və istismar qazması işləri aparmaq üçün 400-dən artıq iri metal özüllər fəaliyyət göstərirdi.

Dənizdə neft işlərini uğurla aparmaq üçün həm də dəniz neft donanmasının yaradılmasına ehtiyac duyulurdu. SSRİ Neft Sənayesi Nazirliyinin 1949-cu il 4 noyabr tarixli əmri ilə Özüüzən Vasitələr Baş İdarəsi və həmin nazirliyin 1953-cü il 22 yanvar tarixli əmri ilə isə "Xəzərdənizneftdonanma" idarəsi yaradıldı. 1954-cü ildə bu idarənin balansında 170 müxtəlif təyinatlı üzən vasitə var idisə, 1955-ci ildə artıq bu rəqəm 213-ə yüksəlmişdi.

Dəniz neft yataqlarının istismar tarixində digər vacib hadisələrdən biri də 1958-ci il avqust ayının 7-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarına əsasən elan olunmuş "Dənizin su qatının 25-100 metr dərinliyində kəşfiyyat və istismar işləri aparmaq üçün dəniz özülünün hazırlanması barədə" keçirilən müsabiqə ilə əlaqədar "Dənizneftlayihə" institutunun layihələndirdiyi, 1800 metr dərinlikdə struktur-axtarış qazma işləri aparmağa qadir olan fərdi üzən qazma qurğusu oldu.

Dənizdə neft hasilatını artırmaq üçün digər üsullar da axtarılırdı. Dənizin sahilə yaxın hissəsində estakadaların və fərdi üzən özüllərin səmərəli olmadığı yerlərdə işləmək üçün Azərbaycan SSR alim və mühəndisləri tərəfindən müasir hidrotexnikanın ən son nailiyyətlərini istifadə etməklə müasir bəndlər (damba) layihələndirildi və ilk dəfə Xəzər dənizinin Qaradağ rayonu ərazisində neft yataqlarının işlənməsində tətbiq olundu. 1960-cı ildə bu yolla uzunluğu 6 km-ə çatan 6 bənd hazırlandı və 18 neft quyusu qazıldı. Bu illər ərzində həmçinin alim və mütəxəssislər tərəfindən dəniz qurğularını aşınmadan qorumaq üçün aşınmaya qarşı çox səmərəli vasitələr hazırlandı və tətbiq olundu.

Sahənin texniki cəhətdən təchiz edilməsi ilə yanaşı, respublikanın neft sənayesinin idarə olunması strukturunda da dəyişikliklər baş verirdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1954-cü il 18 may və SSRİ Nazirlər Sovetinin 1954-cü il 13 iyun tarixli qərarlarına əsasən Azərbaycan SSR Ali Sovetinin və Nazirlər Sovetinin 1954-cü il 26 iyul tarixli müvafiq qərarları ilə respublikanın Neft Sənayesi Nazirliyi yaradıldı.

Dənizdə yeni neft və qaz yataqlarının açılması o demək deyildi ki, quruda bu işlər davam etdirilmirdi. 1950-1960-cı illər ərzində Azərbaycanın quru sahəsində dərin qazma üsulu ilə Kürovdağ, Mişovdağ, Qarabağlı, Qalmaz, Qaradağ və digər iri neft və qaz yataqları kəşf edilib istismara verildi.

1955-ci ilin əvvəllərində Bakının cənub-qərbində Xəzər dənizinin sahilində yerləşən Qaradağ yatağında kəşfiyyat quyusundan güclü qaz fontan vurdu. Qazla bərabər quyudan böyük miqdarda kondensat da gəlirdi. Qaradağ neft yatağının kəşf edilməsi (o illər SSRİ-də ən iri qaz-kondensat yataqlarından biri - C.B.) Azərbaycan SSR-də məhsuldarlıq dərəcəsi yüksək olan qaz laylarının axtarışı və kəşfiyyatının yeni mərhələsinin başlanğıcı oldu. 1957-ci ildə bu böyük qaz-kondensat yatağının işlənilməsinə başlanıldı. Qaradağ-Bakı, Qaradağ-Kirovabad (Gəncə)-Ağstafa-Tbilisi və Ağstafa-İrəvan magistral qaz boru kəmərləri çəkildi.

1960-cı ilədək Xəzər dənizində neft hasilatında aşağıdakı üsullaradan istifadə olunurdu:

- dəniz sahilində quyuların qazılması;
- dənizdə qumdan süni adaların yaradılması;
- fərdi özüllərin üstündən quyuların qazılması;
- estakadayanı meydançalardan quyuların qazılması.

Qazma və təqiqatlar zamanı geoloji-kartoqrafik, geofiziki kəşfiyyat, seysmik kəşfiyyat və struktur axtarışı üsulları tətbiq olunurdu. Bundan başqa, dəniz neft mədənlərində "kol" üsulu ilə maili qazma, ikigövdəli qazma üsulları, neft hasilatında isə əsasən fontan üsulu tətbiq olunurdu. 1955-1960-cı illərdə dəniz yataqlarından hasil edilən neftin 70%-i, "Neft Daşları"ndan çıxarılan neftin isə 91%-i fontan üsulunun payına düşürdü. Sonralar Azərbaycan neftçilərinin ağır hidrometroloji dəniz şəraitində axtarış və istismar sahəsində tətbiq etdikləri üsullar başqa dənizsahili yerlərdə, habelə Sibirin zəngin neft və qaz yataqlarının cəmləşdiyi bataqlıq və su basmış ərazilərində də geniş tətbiqini tapmışdır.

1961-ci ildə bir qrup Azərbaycan alim və neftçiləri dəniz neft yataqlarının mənimsənilməsində göstərdikləri müstəsna xidmətlərinə görə keçmiş SSRİ dövlətinin ən ali mükafatına - Lenin Mükafatına layiq görüldülər.

1950-1963-cü illər ərzində Xəzər dənizində 800-dən çox iribloklu özüllər quraşdırılmış və onların vasitəsilə minlərlə kəşfiyyat və istismar quyuları qazılmışdı.

1966-cı ildə SSRİ-də ilk dəfə olaraq iki və habelə daha çox layın bir quyu ilə paralel olaraq istismar edilməsinin texnologiyası işləndi. 1968-ci ilin dekabrında "Neft Daşları"nda 2040 metr mailiklə quyu qazıldı ki, bu da o vaxt üçün Avropa rekordu sayılırdı. "Neft Daşları" yatağının açılmasından sonra bir neçə il müddətində güclü Neft Donanması yaradıldı, estakada tikintisinin yeni bazaları, metal konstruksiya hazırlanması üzrə sahələr işə salındı və bunlar da dənizin 25 metr dərinliyində 20 metr aralıqları olan estakadaların tikilməsinə imkan verdi. "Dənizneftqazlayihə" DETLİ-nin köməyi ilə ağır işlərin mexanikləşdirilməsinə nail olundu və nəticədə estakada tikintisində sürət artdı, bu isə Xəzərin daha böyük dərinlikləri istiqamətində, "Neft Daşları" yatağından cənub-şərqdə yerləşən perspektivli strukturlarda geoloji-kəşfiyyat işlərinin aparılmasına imkan verdi.

1966-cı ildə Kürsəngidə yeni neft-qaz yatağı kəşf edilmiş, 1969-cu ildə "Səngəçal-Duvannı", "Xərə-Zirə" və "Bahar" yataqları istismara verilmişdir. Nəticədə 1964-1968-ci illərdə respublikada neft hasilatının həcmi ildə 21 mln. tona qədər artmışdı.

Bu səbəbdən 1950-1968-ci illəri Azərbaycan neft sənayesinin tarixində üçüncü "canlanma" dövrü adlandırmaq olar. Bu dövrdə Azərbaycan Cənubi Qafqazın yanacaq bazasına çevrilmişdi, enerjidaşıyıcılar (neft, neft məhsulları, qaz) qonşu respublikalara - Ermənistana və Gürcüstana mineral sudan da ucuz qiymətə göndərilirdi.

**Cəbi Bəhramov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, professor

# İnsan psixologiyası və real həyat...



→ Biz adətən öz valideynlərimizə oxşayan adamlara vuruluruq. Uşaqlıqdan valideynlərimizlə aramızda olan problemləri vurulduğumuz adamla həll etmək, çatışmazlıqları onda tapmağa çalışırıq.



→ Həyatımızda baş verən müsbət hadisələr belə, məsələn, universiteti bitirmək, evlənmək və ya yeni işə başlamaq belə depressiyaya səbəb ola bilər.



→ Birinin nələrdən xoşu gəldiyini bilmək istəyirsinizsə, ona hədiyyə aldığınızı və nə olduğunu tapmasını istəyin. O sizə istəklərini deyəcək.



→ Mütəxəssislərin müşahidələrinə görə mavi gözlü insanlar bir neçə dəqiqə ərzində aşiq ola bilərlər, qonur gözlü insanlar isə eyni zamanda iki nəfəri sevə bilərlər. Yaşıl gözlü adamların aşiq olması üçün uzun müddət lazımdır, hətta bir ilə yaxın. Yerdə qalanlar üçünsə bir saat bəs edir.



→ Kişi və qadın arasında şahidlik baxımından fərqlər var. Məsələn, bir cinayətkar küçədə kiminsə çantasını qapıb qaçır, bunu görən qadın qurbanın üzünü yadda saxlayır, bunu görən kişi isə oğrunun.



→ Eyni vaxtda birdən çox işi görmək mümkün deyil. İnsanların çoxu bunu mümkün saysa da elmi araşdırmalar sübut edir ki, bir işdən daha çox işə diqqəti cəmləmək mümkün deyil. Fiziki işlər istisnadır. Məsələn, yeriyə-yeriyə telefonla danışmaq mümkündür. Bu halda ya yola, ya da telefondakına diqqət verməliyik.



→ Tez yatmaq üçün kürəyi üstə uzanın. Gözlərinizi bağlayın və göz bəbəklərinizi yuxarı qaldırın. Bu yuxu zamanı gözlərin normal halıdır. Bu vəziyyətdə yatarkən insan tez, asan və bərk yatır.



→ İnsanın yaddaşı ən yaxşı səhər 8-dən 12-yə kimi və axşam 9-dan sonra işləyir. Ən pis isə günortadan sonra.



→ Əgər hər tərəfi tərs göstərən eynək taxsanız, bir müddət sonra tərs velosiped də sürə bilərsiniz.

Röya Rasimqızı,
"İki sahil"

# İşdəki yorğunluqdan necə yaxa qurtarmalı?



**Xüsusilə yay mövsümündə hər birimiz şahid olmuşuq ki, ətrafımızdakı iş yoldaşlarımızdan bəziləri "artıq tükənmişəm, heç işləyə bilmirəm. Bu işdən zövq ala bilmirəm" kimi şikayətlər edirlər. Nəticədə onlarda səbəbsiz yerə əsəbilik, duyğusallıq, özünə inamsızlıq kimi psixoloji məqamlar da müşahidə edilir.**

Bu kimi mənfi xüsusiyyətlərin, gərginliklərin əsasında duran faktor birbaşa fəsillə əlaqədar deyil. Mütəxəssislərin qənaətinə görə, bütün bu əlamətlər tükənmişlik sindromunun təzahürüdür. Bu cür əlamətlər özünü daha açıq şəkildə isti aylarda büruzə verir. Bu həm psixoloji, həm fiziki , həm də zehni yorğunluqla əlaqəli şəkildə baş verir.

Məlumat üçün bildirək ki, bu sindrom zamanı ən çox rastlanan şikayətlər unutqanlıq, diqqət əskikliyi, öyrənmə, əzbərləmə çətinlikləri, beyində ağırlıq hissi, biganəlik, dözümsüzlük və tez əsəbiləşməkdir.

Bir çoxları tükənmişlik sindromunu depressiya ilə qarışdırırlar. Amma bu heç də doğru deyil. Onlar arasında açıq-aydın fərqlər var. Bu tip sindromun tibbdə adı "burn out" və ya yanma sindromudur. Belə ki, 5 ildən artıq eyni işdə işləyən insanların 70%-dən çoxunda rast gəlinə biləcək psixoloji vəziyyətdir. Əsas əlamətləri depressiya ilə oxşar olsa da, tükənmişlik sindromu sırf iş həyatı ilə bağlı ümidlərin tükənməsi, motivasiyanın aşağı düşməsi ilə əlaqədar yaranır. Yəni insanın normal həyatı davam edir, şəxsi həyatında münasibətləri qaydasında olur, həyatdan zövq ala bilir, amma iş mühitində bu göstəriciləri aşağı düşür. Əsas yaranma səbəbi dəyişiklik olmayan eyni mühitdə uzun müddət işləməkdir. Yeni vəzifə artımı, əmək haqqı artımı olmadan işləmək, gözləntiləri ilə reallıqların üst-üstə düşməməsi, məzuniyyətsiz və istirahətsiz işləmək, rəhbər şəxs tərəfindən düzgün qiymətləndirilməmək və ya motivasiya edilməmək, komanda ruhunun zəifliyi, iş yükünün düzgün bölünməməsi, ədalətsizlik, aşırı məsuliyyət və bənzər səbəblər "burn out"-u qaçılmaz edir.

Davamlı baş ağrıları, mədə-bağırsaq problemləri, əzələ və sinir ağrıları, iştahın pozulması kimi əlamətlər tükənmişlik sindromunun göstəricisi ola bilər. Bu kimi ağrıları özü müalicə etməyə çalışan şəxslər daha sonra tükənmişlik sindromunun qarşısının alınması prosesinin bir qədər ləngiməsinə səbəb olurlar. Bu sindromla yaşamaq iş keyfiyyətinin tamamilə aşağı düşməsinə və əvvəllər zövq ala bildiyi işdən heç bir zövq ala bilməməyə səbəb olur. Bəzən iş yerinin dəyişdirilməsi belə, sindromun əlamətlərinin aradan qalxmasına kömək etmir. Bu, xüsusilə, mütəxəssis yardımı almadan uzun müddət bu vəziyyətin davam etdiyi hallarda baş verir. Əslində bu, xəstəlik deyil.

Tükənmişlik sindromunun əlamətlərini hiss etdikdə iş yükünü azaltmalı, işdən sonra işlə bağlı düşünməməli, elektron poçtunuzu və iş telefonlarınızı bir kənara qoymalısınız. Əlamətlər davamlı olarsa, mütləq psixoloji xidmət göstərən mütəxəssisə müraciət etmək lazımdır. Ümumiyyətlə, rəhbər şəxslər də, işçilərinin psixi vəziyyətinin iş keyfiyyətinə təsirini və korporativ hədəflərə çatılmasında vacib olduğunu nəzərə alıb, iş mühitində komanda ruhunun formalaşmasına, ədalət və şəffaflıq prinsipinin qorunmasına əməl etməli, adi təşəkkürü işçilərdən əsirgəməməli, tez-tez korporativ işdən kənar tədbirlər həyata keçirməlidir. Bunları etməklə işçilərin psixi sağlamlığı qorunur ki, bu da şirkət və ya qurumun iş fəaliyyətinin daha da uğurlu olmasına stimul verir.

Həftə içi çalışan insanlar istirahət günlərini səmərəli şəkildə dəyərləndirməlidirlər. Bu onlara yeni iş həftəsinə yüksək enerji ilə qədəm qoymağa kömək edəcək. İstirahət planlarını fərqli və rəngarəng şəkildə qursunlar. Uzun müddət fasilə vermədən işləyən, sağlam qidalanmayan, əsəbləri, əhval-ruhiyyəsi yerində olmayan şəxslər xüsusilə bu sindroma tutulmamaq üçün diqqət etməlidirlər. İstənilən halda həm həftə sonlarını, həm də məzuniyyətinizi lazımi səviyyədə dəyərləndirin. Xüsusilə də ilin əsas istirahət zamanı olan yay fəslindən səmərəli şəkildə yararlanın.

Yaqut Ağaşahqızı,
"İki sahil"

# MARAQLI FAKTLAR TOPLUSU

- ☑ Sağ əlini istifadə edən insanlar solaxaylardan orta hesabla 9 il daha çox yaşayır.
- ☑ Əgər ayağınıza soğan sürtsəniz, təxminən bir saat sonra dadını ağzınızda hiss etməyə başlayacaqsınız. Çünki qan damarlarınıza işləyəcək.
- ☑ İnsan orqanizminin 3 sm-lik hissəsində ən az 20 milyon mikroskopik canlı yaşayır.
- ☑ Zürafələr susuzluğa dəvələrdən daha dözümlüdür.
- ☑ Bir ilbiz 3-4 il yata bilər. Qidalanmağa ehtiyacı olmaz.
- ☑ Qaranlıq otaqda saxlanılan qızıl balıqcığın rəngi get-gedə solur.
- ☑ Kişilər qadınlardan 30 faiz daha güclüdür və beyinləri qadınların beynindən daha ağırdır.
- ☑ Normal insan özü bilmədən ildə orta hesabla 430 həşərat udur.
- ☑ Bir çovdar toxumu 640 km uzunluğunda kök verə bilər.
- ☑ Merkuri planetinin səthinin temperaturu gün ərzində 430 dərəcəyə qalxır; gecə isə 180 dərəcəyə düşür.
- ☑ Palıd və fıstıq ağacından buxarlanan hava bir gün ərzində təxminən 100 litrə çatır.
- ☑ Kəpənəklər arxa ayaqları ilə qoxu alır və sütunları toxunma ilə aktivləşir.
- ☑ Finlandiyada bitən şam ağaclarının kökü 50 kilometrdən çoxdur.
- ☑ İndiyə qədər velosipedlə əldə edilən ən yüksək sürət 268 kilometrdir. Bu rekordu Fred Rompelberq adlı holland velosipedçi qırıb.
- ☑ Neandertal insanın beyni bizim beynimizdən daha böyük olub.
- ☑ 2.000 kilometr uzunluğundakı Böyük Mərcan Rifi dünyada yaşayan ən böyük canlıdır.
- ☑ Autizmdən əzab çəkənlərin 65 faizi solaxaydır.
- ☑ Qütb ayıları saatda 40 kilometr sürətlə qaça və 1,8 metr yüksəyə sıçraya bilir.
- ☑ Bədəndə olan damarların uzunluğu təxminən 100 min kilometrdir. Bu uzunluqdakı bir iplə dünyanı 2,5 dəfə dövrə vurmaq olar.
- ☑ Nəfəsi almadan dayanmaqla ölmək mümkün deyil. Çox saxlasanız, huşunuzu itirə bilərsiniz, sonra yenidən normal nəfəs almağa başlayarsınız.

Könül Əliyeva,
"İki sahil"

# SOCAR-ın TENDERLƏRİ

SOCAR

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Ekologiya İdarəsi

**starqazın (STARGAS 898) ehtiyat hissələri və infraqırmızı kameraya olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (210010-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 02.08.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan və ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi və tələb olunan digər sənədlər Azərbaycan dilində texniki (texniki təklif qiymət olmamaq şərti ilə verilməlidir) və maliyyə təklifləri ayrı-ayrı zərflərdə təqdim olunmaqla hər biri üç nüsxədə (bir nüsxədə əsli və iki nüsxədə surəti) ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə 15.08.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər Lot 1 üzrə 236 manat, Lot 2 üzrə 118 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

* İştirak haqqı heç bir halda geri qaytarılmır.

***IV. Təklifin təminatı Lot 1 üzrə ( nəzərdə tutulur):***
Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin 1 (bir) faizi məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir..

Təklifin təminatı :Lot 2 üzrə ( nəzərdə tutulmur)

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin (hər iki LOT üzrə) 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1029, Bakı şəhəri, Nərimanov rayonu, H.Əliyev pr.121
"SOCAR TOWER" 12-ci mərtəbə
Əlaqələndirici şəxs:
Mirzəyev İsmayıl
Marketinq və satınalmalar şöbəsinin rəisi
+(994) 012 521 08 17
+(994) 012 521 08 19
İsmayil.Mirzeyev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**

---

SOCAR

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Ekologiya İdarəsi

**Gigiyena və epidemiologiya mərkəzini zərərverici və gəmiricilərə qarşı dərman vasitələri ilə təmin etmək üçün açıq satınalma müsabiqəsi (21008-19) üzrə müvafiq tarixlərin dəyişdirilməsini elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 02.08.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 236 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

***IV. Təklifin təminatı ( tələb olunmur):***
Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin 0 %-i məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 0%-i məbləğində tələb olunur.
Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 30 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1029, Bakı şəhəri, Nərimanov rayonu, H.Əliyev pr.,121,
"SOCAR TOWER" 12-ci mərtəbə
Əlaqələndirici şəxs:
Mirzəyev İsmayıl
Marketinq və satınalmalar şöbəsinin rəisi
+(994) 012 521 08 17
+(994) 012 521 08 19
İsmayil.Mirzeyev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv

16

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 126 (7381) / Çərşənbə axşamı, 16 iyul 2019-cu il


## Kainat fırlanırmı?



**Böyük Britaniyanın Nottingem Universitetinin fizika və astronomiya məktəbinin alimləri kainatın fırlanması barədə fərziyyəni araşdırırlar. Məktəbin elmi işçisi Daniel Saade deyib: "Bu fərziyyə, bizim hesablamalarımızı necə aparacağımızdan, verilənləri necə təhlil etməyimizdən asılıdır".**

**Alimlər kainat haqqında bu fərziyyələrin və onun fundamental fizikasının doğru olmasını görmək, onları yoxlamaq üçün müşahidələrin nəticələrini toplayıblar. Onlar kosmik mikrodalğa fonundan olan işıqdan istifadə ediblər. Bu, Böyük partlayışdan 380 min il sonra şüalanan, hazırda müşahidə edilə bilən ən qocaman işıqdır və kainatı öyrənənlər üçün informasiya xəzinəsidir.**

**AZƏRTAC xəbər verir ki, bu barədə məlumat https://www.astronews.ru saytında yer alıb. Məlumatda bildirilir ki, bu işıqlar bütün istiqamətdə təxminən eynidir. Lakin kainatın tarixi, məzmunu və həndəsəsindən təsirlənərək cəmi mindəbir qədər fərqlənən, çox da böyük olmayan temperatur dəyişməsi var. Bu fərqləri ölçərək kainatın fırlanmasını iddia edən alimlər onun hər hansı formada deformasiya olduğunu görə bilərlər.**

**Tədqiqatçılar müəyyən ediblər ki, mikrodalğa fonunda olan işıq kainatın fırlanmasını sübut edən dəlilləri göstərmir. Eyni zamanda, tədqiqatlarda göstərilib ki, Kainat 95 faiz bircinsdir, yəni böyük miqyasda o, hər yerdə eynidir. Bu nəticə, çətin ki, dəyişsin.**

**"Biz həqiqətən o ideya ilə başladıq ki, kainatın mərkəzindəyik. Düşünürəm ki, bu, doğrudan da maraqlıdır, yəni biz nə qədər xırda və nəzərə alınmayan ölçüdəyik", - deyə Saade qeyd edib.**

## Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti olub



Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında konsert proqramı ilə çıxış edib.

Filarmoniyadan AZƏRTAC-a bildirilib ki, Mustafa Mehmandarovun dirijorluğu ilə orkestr Qərbi Avropa bəstəkarlarının əsərlərinə müraciət edib.

Konsert çərçivəsində orkestrin solistləri də çıxış edib.

Qeyd edək ki, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri mütəmadi olaraq konsert proqramı ilə çıxış edir.

## İspaniyanın Neymardan vergi tələbi



Futbolçu Neymar 35 milyon avro həcmində vergi ödəməlidir.

AZƏRTAC xəbər verir ki, bu barədə İspaniyanın vergi xidmətində bəyan ediblər.

Əks təqdirdə iş məhkəməyə verilə, hücumçunun "Barselona"ya mümkün qayıdışı isə sual altında qala bilər.

## Pis keçən günü yaxşıya çevirmək...



### ÖZÜNÜZÜ ÇOX İNCİTMƏYİN

Bir səhv etdikdə özümüzü cəzalandırmağa çalışırıq. Amma bunu unutmayın ki, hamı səhv edir və səhvlərimizdən dərs çıxarmaq həyatda irəliləməyin tək yoludur. Səhv etdikdən sonra özünüzü günahlandırmaq yerinə, harada səhv etdiyinizi tapmağa çalışsanız, həm gününüz, həm də həyatınız daha yaxşı olacaq. Özünüzü bağışlamağınız o qədər də çətin deyil.

### TƏMİZ HAVA ALIN

Əgər çöldə gəzintiyə çıxıb günəşin altında oturmaq şansınız varsa, bundan istifadə edin. Təmiz hava sahib olduğunuz qayğı və narahatçılıqları azaltmaq üçün çox köməyinizə çatacaq.

### OLDUĞUNUZ HƏR YERDƏ GÖZƏLLİKLƏRİ GÖRMƏYƏ ÇALIŞIN

Çox yorğun olduğunuz vaxtlarda günəşin batmasının gözəlliyini qaçıra bilərsiniz. Əgər təbiətə yaxın bir yerdə deyilsinizsə, muzeyə və ya incəsənət qalereyasına gedin. Bunlar da yoxdursa, sizə ən yaxın parka gedin və dincəlin.

**Röya Rasimqızı, *"İki sahil"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti "Təmir-tikinti" MMC-nin nəzarətçisi Vaqif Əliyevə, atası

**Vidadi Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Azneft" İstehsalat Birliyinin rəhbərliyi N.Nərimanov adına NQÇİ-nin Tikinti üzrə rəis müavini

**Xalid Qiyasəddin oğlu Kərimovun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin Tikinti üzrə rəis müavini

**Xalid Kərimovun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi idarənin Tikinti üzrə rəis müavini

**Xalid Qiyasəddin oğlu Kərimovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Azneft" İB-nin Ə.C.Əmirov adına NQÇİ-nin rəhbərliyi və əmək kollektivi idarənin Həmkarlar İttifaqı Komitəsinin sədri Rahib İsrəfilova, anası

**Səlminaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Azneft" İB-nin "Qaz Anbarlarının İstismarı İdarəsi"nin rəisi Xaliq Şəfiyev, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin Tikinti üzrə rəis müavini

**Xalid Kərimovun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüzndə başsağlığı verirlər.

## "Qarabağ" mərakeşli futbolçunu transfer etdi




Növbəti mövsüm üçün heyətini gücləndirməyə davam edən "Qarabağ" üçüncü transferini reallaşdırıb.

Milli.Az klubun saytına istinadən xəbər verir ki, Ağdam klubu Rherras Faycalı heyətinə qatıb. Mərakeşli müdafiəçi ilə iki illik müqavilə imzalanıb.

26 yaşlı müdafiəçi sonuncu dəfə Fransanın "Bezye" klubunda çıxış edib.

## Yeni agent 007 rolunu qaradərili aktrisa canlandıracaq



Superqəhrəman agent 007 haqda olan 25-ci filmdə baş rolu britaniyalı qaradərili aktrisa Laşana Linç canlandıracaq.

AZƏRTAC xəbər verir ki, filmdə agent 007 təqaüdə çıxdığından bu vəzifəni Laşana Linçə ötürəcəklər.

Xatırladaq ki, aktrisa əvvəl "Kapitan Marvel" (Captain Marvel, 2019) filmində çəkilib.

Filmdə baş rolları fransız aktrisası Lea Seydu, amerikalı aktyor Ceffri Rayt, kubalı aktrisa Ana de Armas və amerikalı Billi Maqnussen canlandırırlar.

Qeyd edək ki, indiyədək agent 007 haqqında 24 film çəkilib. Bu vaxt ərzində ümumi kassa gəlirləri təxminən 10 milyard dollara çatıb.


Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV
Baş redaktorun müavini: Nail Arifoğlu
Baş redaktorun müavini: Rəşad Bağırov

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB38030019443700306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
*Qəbul otağı:* 530-26-46, 430-87-97
*Baş redaktorun I müavini:* 530-26-36
*FAX:* 430-87-47
*Mühasibatlıq:* 430-87-27
*e-mail:* ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 16.07.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8145**
*İndeks:* **0151**, *Sifariş:* **2276**

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.